

6

## Jan Perrən: “Prezident İlham Əliyev Ulu Öndərin ən ümdə arzusunu reallaşdırdı”

*Heydər Əliyev haqqında eşitdikdən sonra belə bir böyük şəxsiyyəti görmək istəyim bitib-tükənmirdi. Azərbaycan müstəqilliyini bərpa edəndən sonra Fransanın bu ölkədə ilk səfiri...*




## “Xarıbülbül” Festivalının keçirilməsi mühüm siyasi və mədəniyyət hadisəsidir

12

# Səs

№ 82 (6523) 12 may 2022-ci il. Qiyməti 60 qəpik

## Prezidentin Füzuli və Şuşadan bütün dünyaya növbəti mesajı!



2

# “5-ci kolon”un fəallaşması: qara qüvvələr yenidən iş başında!




5

# Heydər Əliyev Fondu: 18 ilin reallıqları



*Müstəqil Azərbaycanda Ümummilli Lider Heydər Əliyev ideyalarını davam etdirən və mövcud prinsiplər və ənənə ilə fəaliyyət göstərən, Heydər Əliyev Fondunun şaxəli fəaliyyəti Azərbaycanın sosial, iqtisadi, mədəni həyatında özünü göstərir. Ümummilli Lider Heydər Əliyevin zəngin irsinin öyrənilməsi, Onun yaratdığı milli dövlətçilik ideyalarının yeni nəsillərə daim aşılamaq məqsədi ilə yaradılan Fondun genişmiqyaslı fəaliyyəti onu nəinki Azərbaycanda, hətta onun hüdudlarından kənarda belə əks-səda doğurmasına gətirib çıxarıb. Xeyriyyəçilik və humanizm kimi dəyərlərdən yoğrulmuş fəaliyyət insanlığa, bəşəriyyətə xidmət etmək kimi ali bir dəyərə söykənir.*

3

6



## Siyasi dialoq prosesləri çərçivəsində Prezident Administrasiyasında növbəti görüş keçirilib

## Diqqət: İnternet xəstəlikləri hansılardır?



Müasir dövrün ən böyük bəlası internet xəstəlikləridir. Hər yaşda rast gəlinən bu xəstəliyə xüsusilə işi kompüter dən asılı olanlar yoluxur... 16

## Xankəndi ermənilərinə pasport veriləcək: Arayik rəsmi Bakının tələbini qəbul etdi



## “Haaland əsl heyvandır"

*“Liverpul”un baş məşqçisi Yurgen Klopp Dortmund ”Borussiya”sının hücumçusu Erlinq Haalandın ”Mançester Siti”yə keçidinə münasibət bildirib.*






16

# Prezidentin Füzuli və Şuşadan bütün dünyaya növbəti mesajı!



*İlham Əliyev: "Buna and içmişdim. Xoşbəxt adamam ki, bu anda sadiq oldum və bu gün Qarabağ azaddır"*

### QARABAĞ BÖLGƏSİNİN YÜKSƏLİŞİNİN TƏMİNATÇISI - QALİB LİDER

Bəli, ötən il Azərbaycanın şanlı tarixinə 44 günlük Vətən müharibəsi kimi düşən İkinci Qarabağ savaşı uğurla yekunlaşandan sonra xalqımız və dövlətimizin qarşısında yeni məsul vəzifə dayandı. Bu, işğaldan azad edilmiş tarixi və əzəli torpaqlarımızda quruculuq, bərpa işlərinin aparılması, yenidən Qarabağa həyatın qaytarılmasıdır. Artıq 44 günlük qələbəmizdən bir il keçməsinə baxmayaraq bu istiqamətdə genişmiqyaslı işlər görülür, əcnəbi şirkətlərlə birgə yeni iqtisadi, quruculuq layihələri hazırlanır, hətta infrastrukturun bərpası ilə bağlı bir çox ilkin tədbirlər həyata keçirilir. Təbii ki, bütün bu mənzərələrin fonunda ölkə başçısının işğaldan azad olunmuş ərazilərə mütəmadi səfərlər etməsi quruculuq və bərpa işlərinin daha operativ və effektiv şəkildə davam etdirilməsini təmin edir.

Bəli, bu gün Qalib Lider, Prezident İlham Əliyevin işğaldan azad olunmuş rayonlara səfəri zamanı -"Qarabağda cənnət yaradacağıq" vədi sözü ilə əməlin bir olmasının göstəricisidir. Prezident İlham Əliyev bu günə qədər verdiyi bütün sözləri, vədləri yerinə yetirib. Necə ki, "Qarabağ Azərbaycandır və nida işarəsi" deyən dövlətimizin başçısı sözlərinə sadiq qalaraq Ermənistanın faşizm siyasətini məhv etdi, Qarabağı işğaldan azad etd, hazırda da "Qarabağda cənnət yaradacağıq" vədini addım-addım yerinə yetirməkdədir. Bir sözlə, bu gün artıq Azərbaycan Respublikasının Prezidenti azad nəfəs alan torpaqlarımızı gəzir, Qarabağın cənnətə çevrilməsi üçün tapşırıqlarını verir, işlərə nəzarət edir, yeni layihələrin həyata keçirilməsi yollarını arayıb-axtarır və bu sahədə əməli tədbirlər görür. Azərbaycan xalqı da öz Prezidentinə inanır və güvənir və əmindir ki, qısa zaman çərçivəsində işğaldan azad olunmuş ərazilər bərpa ediləcək, böyük qayıdış başlayacaq və Azərbaycan dünyanın ən abad, gözəl, inkişaf etmiş dövlətləri sırasında olacaqdır.

### SÖZÜ İMZASI QƏDƏR QÜVVƏTLİ LİDER

"Mənim sözüm imzam qədər qüvvətlidir"- deyən Qalib Lider Qarabağımızı azad etdi və işğaldan azad olunmuş torpaqlara səfərləri, qısa bir zaman kəsiyində görülən uğurlu işlər və həyata keçirilən layihələr məhz Azərbaycan Prezidentinin sözünün və əməlinin vəhdətinin nümayişidir. Prezident İlham Əliyev bu günə qədər verdiyi bütün vədləri yerinə yetirib. Çünki sözü imzası qədər qüvvətli olan liderdir! Artıq tariximizin qürur doğuran səhifələri yazılır. İndi Füzuli, Şuşa, Laçın, Kəlbəcər də, Ağdam da azaddır və digər işğal olunmuş rayonlar da. Hazırda işğaldan azad olunmuş torpaqlarımız bərpa olunur, yenidən qurulur, artıq Xarı bülbül boynunu bükməyib. Qarabağın Azərbaycana məxsusluğunu mədəniyyət müstəvisində bəyan edən "Xarıbülbül" festivalı bərpa olunub. "Şuşasız Qarabağ, Qarabağsız isə, ümumiyyətlə, Azərbaycan yoxdur" deyən Ümummilli Lider Heydər Əliyevin vəsiyyətinə uyğun hakimiyyətdə olduğu 19 il ərzində, hər gün və hər saat Şuşa başda olmaqla işğalda olan bütün əraziləri azad etmək uğrunda mübarizə aparan Prezident İlham Əliyev indi də onun bərpasına, quruculuğuna nail olmaqdadır. Səfər zamanı Şuşadan etdiyi müraciətində dediyi kimi: "Bu gün mayın 10-da mən yenidən Ulu Öndərin xatirəsinə Azərbaycan xalqının ehtiramını ifadə edərək Azərbaycan xalqını əmin etmək istəyirəm ki, bundan sonra da xalqımızın, dövlətimizin inkişafı, müstəqilliyimizin möhkəmləndirilməsi üçün əlimdən gələni əsirgəməyəcəm".

### FÜZULİ VƏ ŞUŞADA GÖRÜLƏN İŞLƏR, HƏYATA KEÇİRİLƏN LAYİHƏLƏR BİR DAHA AZƏRBAYCANIN GÜCÜNÜ VƏ QÜDRƏTİNİ NÜMAYİŞ ETDİRİR

Azərbaycan Prezidenti İlham Əliyev və Birinci xanım Mehriban Əliyeva Füzuli rayonuna səfəri zamanı bir çox tədbirlərdə iştirak edərək bildirib: "Bu gün Qarabağ dirçəlir. Bu gün Füzulidə və Şuşada bir neçə tədbirdə iştirak etmişəm. Bütün bölgələrdə quruculuq-bərpa işləri sürətlə gedir, azad edilmiş bütün ərazilərdə genişmiqyaslı abadlıq-quruculuq və bərpa işləri aparılır". "Şəhərlərin, kəndlərin yenidən qurulduğunu qeyd edən dövlətimizin başçısı deyib ki, işğal dövründə düşmən bütün şəhər və kəndlərimizi yerlə-yeksan edib, bütün tarixi abidələrimizi dağıdıb, Qarabağın, bölgənin, Qafqazın incisi olan Şuşa kimi şəhəri bərbad hala qoyub. Biz - bu torpaqların sahibləri artıq qayıtmışıq, hər gün inkişafla bağlı daha bir addım atılır. Hər gün daş üstə bir daş qoyulur. Biz azad edilmiş bütün torpaqları bərpa edəcəyik və bərpa edirik",- deyən dövlət başçısı "Biz bu torpaqlara, doğma torpaqlarımıza əbədi qayıtmışıq və burada əbədi yaşayacağıq. Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!", - deyə Prezident İlham Əliyev vurğulayıb.

Bəli, bu gün Azərbaycan Prezidenti və birinci xanım Füzuli şəhərində inşa olunacaq Peşə Liseyinin, rayon mərkəzi xəstəxanasının təməlqoyma mərasimində iştirak edərək, yeni yaradılacaq mərkəzi park kompleksinin ərazisində ağac əkiblər. Şuşada Heydər Əliyev Fondu tərəfindən Şirin su hamamında, tarzən, bəstəkar və Azərbaycan tarını təkmilləşdirən sənətkar Sadıqcanın evində, Mehmandarovlar malikanə kompleksində aparılacaq bərpa işləri ilə, "Shusha Boutique Hotel"də və Şuşa Realnı Məktəbində həyata keçiriləcək təmir-bərpa işləri ilə də tanış olublar, "Azərişıq" ASC-nin Şuşa Rəqəmsal İdarəetmə Mərkəzinin açılışında iştirak ediblər.

### ŞUŞADAN NÖVBƏTİ MÜRACİƏT

"Bu gün ulu öndər Heydər Əliyevin anadan olmasının 99-cu ildönümüdür. Bu gün Füzuli və Şuşa şəhərlərinə səfər etmişəm. Keçən il mayın 10-da Naxçıvanda idim. Bu il mayın 10-da isə Qarabağdayam, işğaldan azad edilmiş Qarabağda". Azərbaycan Prezidenti ulu öndər Heydər Əliyevin Azərbaycan xalqının ən çətin anlarda xalqın yanında olduğunu, xalqını böyük bəlalardan, faciələrdən xilas etdiyini, Azərbaycan dövlətinin banisi, qurucusu olduğunu deyib: "Əfsuslar olsun ki, atam bu günü görə bilmədi. Onun kimi yüz minlərlə azərbaycanlı bu günü görmədən həyatdan getdilər. Biz - onların davamçıları onların işini tamamladıq, atamın vəsiyyəti yerinə yetirildi. Bu gün atamın, bu günü görmədən həyatdan getmiş yüz minlərlə insanın, şəhidlərimizin ruhu şaddır. Biz onların ruhunu şad eləmişik!". Bu gün bütün bölgələrdə quruculuq-bərpa işlərinin sürətlə getdiyinibildirərək deyib ki, əslində, şəhərlər, kəndlər yenidən qurulur: "Çünki işğal dövründə düşmən bütün şəhər və kəndlərimizi yerlə-yeksan etmişdir, bütün tarixi abidələrimizi dağıtmışdır, Qarabağın, bölgənin, Qafqazın incisi olan Şuşa kimi şəhəri bərbad hala qoymuşdur. Biz - bu torpaqların sahibləri artıq qayıtmışıq və bu torpaq, bu səma bunu görür. Görür ki, hər gün inkişafla bağlı daha bir addım atılır. Hər gün daş üstə bir daş qoyulur. Biz azad edilmiş bütün torpaqları bərpa edəcəyik, bərpa edirik".

Bəli, bu gün Füzuli, Şuşa, bütün Qarabağ dirçəlir. Bəli, bu gün Prezident İlham Əliyev əməli ilə bir daha göstərir ki, bu sözləri heç də söz xətrinə söyləməyib. Prezident kimi Azərbaycanı tarixinin ən qüdrətli dövlətinə çevirən Azərbaycan Prezidenti bu gün başladığı işlərlə Qarabağın əvvəlki şöhrətini özünə qaytaracağını dünyaya nümayiş etdirir. Bütün bunlar bir daha təsdiq edir ki, azad edilmiş ərazilərimizin vahid konsepsiya əsasında bərpası ölkənin iqtisadi potensialının genişlənməsinə səbəb olacaq. Bu ərazilərin reinteqrasiyası ölkə iqtisadiyyatına müsbət təsir göstərəcək, iqtisadi artıma səbəb olacaq. Qarabağın bərpa prosesi çoxşaxəli olduğu üçün nəinki həmin ərazilərin, ümumilikdə ölkə iqtisadiyyatının bir çox sektorlarının inkişafı üçün yeni imkanlar yaranacaq.

**RƏFİQƏ KAMALQIZI**

## ABŞ Dövlət katibi Prezident İlham Əliyevə zəng edib



Mayın 11-də Amerika Birləşmiş Ştatlarının (ABŞ) Dövlət katibi Antoni Blinken Prezident İlham Əliyevə zəng edib. Telefon danışığı əsnasında ABŞ Dövlət katibi Antoni Blinken ulu öndər Heydər Əliyevin anadan olmasının 99-cu ildönümü münasibətilə təbriklərini çatdırıb. O, həmçinin bu yaxınlarda Birləşmiş Ştatların Dövlət Departamentinin və ABŞ-ın Cənubi Qafqazın üç ölkəsində fəaliyyət göstərən səfirlərinin Azərbaycana səfər etdiklərini və səfər zamanı səmərəli müzakirələrin aparıldığını qeyd edib.

ABŞ Dövlət katibi Azərbaycan ilə Ermənistan arasında aparılan danışıqları və bu xüsusda sülh sazişinin bağlanmasını dəstəklədiyini vurğulayıb və bunun regionda davamlı sülhün təmin olunmasına töhfə verəcəyinə ümidvar olduğunu ifadə edib. Antoni Blinken, həmçinin ABŞ-ın Azərbaycanla Ermənistan arasında sərhədlərin delimitasiyası və demarkasiyası, nəqliyyat xətlərinin açılması prosesinə dəstək verməyə hazır olduğunu vurğulayıb. Dövlətimizin başçısı təbriklərə görə təşəkkürünü bildirib.

Prezident İlham Əliyev Azərbaycanın Ermənistan ilə münasibətləri normallaşdırmaq məqsədilə təqdim etdiyi 5 prinsipin Ermənistan tərəfindən qəbul edildiyini və Azərbaycanın bu prinsiplər əsasında sülh sazişi üzrə danışıqlara başlamağa hazır olduğunu bildirib. Prezident İlham Əliyev, həmçinin Azərbaycanın delimitasiya və demarkasiya prosesinin tezliklə başlanılması üçün milli komissiyanın tərkibini müəyyən etdiyini diqqətə çatdırıb və nəqliyyat-kommunikasiya xətlərinin açılmasının vacibliyini qeyd edib.

Eyni zamanda, tərəflər Ermənistan ilə Azərbaycan arasında humanitar gündəliyə aid məsələlərə də toxunublar. Telefon danışığı zamanı enerji təhlükəsizliyi məsələləri də müzakirə olunub. Söhbət əsnasında ölkələrimiz arasında dialoqun artırılması imkanlarına, Azərbaycanda demokratikləşmə prosesinə dair fikir mübadiləsi aparılıb və ikitərəfli əlaqələrin inkişafında hökumətlərarası komissiyanın rolu xüsusilə qeyd edilib.

# Heydər Əliyev Fondu: 18 ilin reallıqları

***Müstəqil Azərbaycanda Ümummilli Lider Heydər Əliyev ideyalarını davam etdirən və mövcud prinsiplər və ənənə ilə fəaliyyət göstərən, Heydər Əliyev Fondunun şaxəli fəaliyyəti Azərbaycanın sosial, iqtisadi, mədəni həyatında özünü göstərir. Ümummilli Lider Heydər Əliyevin zəngin irsinin öyrənilməsi, Onun yaratdığı milli dövlətçilik ideyalarının yeni nəsillərə daim aşılamaq məqsədi ilə yaradılan Fondun genişmiqyaslı fəaliyyəti onu nəinki Azərbaycanda, hətta onun hüdudlarından kənarda belə əks-səda doğurmasına gətirib çıxarıb. Xeyriyyəçilik və humanizm kimi dəyərlərdən yoğrulmuş fəaliyyət insanlığa, bəşəriyyətə xidmət etmək kimi ali bir dəyərə söykənir.***





İllərdir ki, yorulmaq bilmədən çalışan və böyük əhəmiyyət kəsb edən, müasir dünyamızın çağırışlarına cavab verən layihələri ilə milyonlarla insanın sevgisini qazanan Azərbaycanın Birinci Xanımı, Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın bu fəaliyyət özünün vurğuladığı kimi, sarsılmaz həqiqətlərə söykənir: "Əxlaq və mənəviyyat, insaniyyət və şəfqət, inam və məhəbbət, xeyirxahlıq və saf niyyətlər Yaradanın hər birimizə bəxş etdiyi ən gözəl keyfiyyətlərdir". Mehriban xanım Əliyeva valideynlərindən əxz etdiyi dəyərləri hər zaman üstün tutaraq, onların öyrətdikləri həqiqətə və mənəviyyata can atmağı özünün həyat məqsədinə çevirib: "Onlar öz varlığı ilə ləyaqət və şərəf hissinin hər şeydən üstün olduğunu aşıladılar. Öyrətdilər ki, alicənablıq və dürüstlük, mənəviyyat və şəfqət, xeyirxah əməllər, inam və məhəbbət - həqiqi xoşbəxtliyə və harmoniyaya aparan yoldur". Bu yol həqiqətə, insanlığa, mərhəmətə aparan yoldur.

Azərbaycanda uşaqların sağlam və gümrah böyüməsi, onların Vətənə layiqli övlad kimi yetişməsi, mükəmməl təhsil almaları dövlətin daim diqqət mərkəzində saxladığı prioritet məsələlərdəndir. Azərbaycanın Birinci Xanımı Mehriban Əliyeva uşaqların xoşbəxt gələcəyi üçün bütün imkanlardan istifadə edir, bu sahəni daim diqqət mərkəzində saxlayır. Heydər Əliyev Fondunun bu sahədə gördüyü işləri isə sadalamaqla qurtaran deyil. "Uşaqlıq dövrü insan həyatının ən rəngarəng, ən yaddaqalan və ən xoşbəxt dövrüdür. Məhz bu illərdə, bu dövrdə insanın gələcək taleyinin, onun, fiziki və mənəvi sağlamlığının, vətəndaş mövqeyinin, insani cəhətlərinin əsası qoyulur", - deyən Mehriban Əliyeva onların xoşbəxt gələcəyi üçün müxtəlif layihələr həyata keçirib. Valideyn himayəsindən məhrum olunmuş uşaqların rifah halının yaxşılaşdırılması, hüquqlarının qorunması, cəmiyyətdə hərtərəfli inkişafı, onlara yüksək səviyyədə səhiyyə xidmətlərinin göstərilməsi Heydər Əliyev Fondunun diqqətdə saxladığı ən vacib məsələlərdəndir. Fondun prezidentinin təşəbbüsü ilə hazırlanmış "Uşaq evləri və internat məktəblərinin inkişafı Proqramı" çərçivəsində xüsusi qayğıya ehtiyacı olan uşaqların təhsil aldıqları onlarla internat məktəbi və uşaq evləri əsaslı təmir edilmiş, ən müasir avadanlıqlarla təchiz olunmuşdur. Hətta, kimsəsiz uşaqlara ev şəraitinə uyğun mühit yaradılmışdır. Gənc nəslin təhsili və sağlamlığının qorunması Heydər Əliyev Fondunun fəaliyyətinin prioritet istiqamətlərindən biri olduğundan Fond ölkədə həyata keçirilən təhsil və səhiyyə islahatlarında xüsusi fəallıq nümayiş etdirir.

Heydər Əliyev Fondunun bu sahədə həyata keçirdiyi tədbirlər isə birbaşa genefondun qorunmasına, bu sahədə mövcud problemlərin əsaslı həllinə yönəlmişdir. Məktəbəqədər hazırlıq müəssisələrinin, uşaq bağçalarının müasir standartlar səviyyəsində qurulması, onların maddi-texniki bazasının gücləndirilməsi Heydər Əliyev Fondunun diqqət mərkəzindədir. "Uşaq evləri və internat məktəblərinin inkişafı proqramı" çərçivəsində ölkəmizdə uşaq evi və internat məktəbi əsaslı təmir olunub və bu müəssisələrdə yaşayan uşaqların problemlərini daim diqqətdə saxlanılıb. Müasir tələblərə cavab verən uşaq evlərində inşa edilmiş hamam, üzgüçülük hovuzu, yay konsert meydançası, stadion, iclas, idman, rəqs salonları, həyətdəki yaşıllıqlar, uşaqların əl işləri muzey-sərgisi burada balacaların fiziki və əqli cəhətdən sağlam böyüməsi üçün hər cür şərait yaradıldığına, Fondun xeyirxah fəaliyyətinin bəhrəsinə əyani sübutdur.

"Təhsilə dəstək", "Diabetli uşaqlara ən yüksək qayğı" kimi layihələri Onun humanizm prinsiplərindən qaynaqlanır. Bütün bu reallıqlar Mehriban Əliyevanın bir qadın, ana, ictimai xadim kimi fəaliyyətində reallığa çevrilib.

## "AZƏRBAYCAN - TOLERANTLIĞIN ÜNVANI"

Milli-mənəvi dəyərlərin qorunması və dini ziyarətgahların yenidən qurulması prosesinə fəal surətdə qoşulan Heydər Əliyev Fondunun ölkəmizdə həyata keçirdiyi "Tolerantlığın ünvanı - Azərbaycan" layihəsi çərçivəsində ölkədə bir neçə dini ocağın təmiri və yenidən qurulması həyata keçirilmişdir. Fondun təşəbbüsü ilə Gəncədə Comərd Qəssab



və Cavad xan türbələri yüksək səviyyədə bərpa edilmişdir. Bu sırada paytaxtın Buzovna qəsəbəsində "Tolerantlığın ünvanı - Azərbaycan" layihəsi çərçivəsində əsaslı surətdə yenidən qurulan Cümə məscidi də xüsusi əhəmiyyət kəsb edir. Azərbaycan ərazisində, bütövlükdə Cənubi Qafqazda və Yaxın Şərqdə ən qədim müsəlman məbədlərindən olan Şamaxı Cümə məscidində əsaslı təmir və yenidənqurma işləri aparılmış, Qəbələdə isə yeni məscid inşa olunmuşdur.

Bütün dövrlərdə, ictimai-siyasi quruluşdan asılı olmayaraq, ölkəmizdə müxtəlif dillərdə danışan, müxtəlif dinləri təmsil edən insanlar sülh, əmin-amanlıq və qarşılıqlı hörmət şəraitində bir ailə kimi yaşayıblar. Bu gün də belədir. Müasir dünyamızda çoxkonfessiyalı və çoxmillətli Azərbaycan bu ənənələrə sadiqdir və bu, ən böyük sərvətlərdən biridir. Təsadüfi deyildir ki, son illər mədəniyyətlərarası və sivilizasiyalararası dialoqa töhfələrini verir. Müasir dövrümüzdə Heydər Əliyev Fondu, nəinki Azərbaycanın, eləcə də, ümumdünya mədəni irsinin qorunmasına böyük əhəmiyyət verir. Fondun layihələrindən olan "Azərbaycan - tolerantlığın ünvanı" layihəsi çərçivəsində Avropada Versal Sarayının memarlıq abidələrinin, kafedral kilsənin vitrajlarının bərpası Azərbaycanda tolerantlığın, dözümlülüyün, dünya mədəniyyətlərinin rəngarəngliyinə hörmətin qədim və möhkəm kökləri olduğunu özündə bir daha ehtiva edir. Azərbaycanın Birinci Xanımı Mehriban Əliyeva Roma şəhərinin ətrafında yerləşən 60-a yaxın katakombaların bərpasında əhəmiyyətili işlərə imza atmışdır. Müqəddəs Marçellinio və Pietro katakombaları xristian aləmi üçün ən mühüm və ən maraqlı abidələrdən biridir və bu addım dinlər və mədəniyyətlərarası dialoqun daha bir parlaq nümunəsi olaraq tarixə yazıldı. Romanın belə nüfuzlu arxeoloji abidəsinin bərpasına töhfəsini verən Heydər Əliyev Fondu tarixi missiyasını həyata keçirmiş oldu. Heydər Əliyev Fondunun Fransanın Orn Departamentinin Santiyi, Fresnay o Sovaj, San-İler la Jerar, Tanvil, Kurjust, Revoyon və Mal yaşayış qəsəbələrində X-XII əsrlərə aid 7 kilsənin bərpasına yardım etməsi də "Azərbaycan - tolerantlığın ünvanı" layihəsi çərçivəsində reallığa çevrilib.

*Ardı Səh. 4*

Əvvəli-Səh-3

# Heydər Əliyev Fondu: 18 ilin reallıqları

Azərbaycan haqqında həqiqətləri beynəlxalq ictimaiyyətə çatdırmağa önəm verən Heydər Əliyev Fondu tərəfindən həyata keçirilmiş layihələr sırasında "Qarabağ həqiqətləri" bukletlər toplusunun nəşri xüsusi əhəmiyyətə malikdir. "Müharibə və tarixi-mədəniyyət abidələrimiz" kitabında Azərbaycanın işğal olunmuş ərazilərindəki ziyarətgahlar və digər tarixi-mədəniyyət abidələri haqqında ətraflı məlumat verilir. "Qarabağ həqiqətləri" silsiləsinin davamı olaraq 2007-ci ildə Heydər Əliyev Fondu Ermənistanın Azərbaycan mədəniyyətinə, maddi-mənəvi irsimizə qarşı məqsədyönlü şəkildə həyata keçirdiyi vandalizm siyasətindən və onun acı nəticələrindən bəhs edən "Azərbaycana qarşı müharibə: mədəni irsin hədəfə alınması" kitabını ingilis dilində nəşr etdirdi. Kitaba işğal olunmuş rayonlarımızdakı mədəni sərvətlərimizin siyahısı, xəritələr, habelə Ermənistan ərazisində və işğal altındakı bölgələrimizdəki tarixi və mədəniyyət abidələrimizin əvvəlki və indiki vəziyyətini əks etdirən videomateriallar əlavə olunub. Rus alimi, yazıçı-tarixçi, professor Rudolf İvanovun "Bəyazidin müdafiəsi: həqiqət və yalan", "Əlahəzrətin general - adyutantı. Hüseyn xan Naxçıvanski haqqında dastan", "Sovet İttifaqı adından" kitabları rus dilində nəşr olunub.








Heydər Əliyev Fondu azərbaycançılıq ideyalarının çarçısı olaraq Azərbaycandan kənarda da amalını gerçəkləşdirmək yönümündə irimiqyaslı layihələri ilə çıxış edir. Onun böyük təşəbbüsü ilə müasir dövrümüzdə fondun ABŞ, Rusiya Federasiyası, Rumıniya və Türkiyədə nümayəndəlikləri fəaliyyət göstərir. Sözsüz ki, belə bir dövlətlərdə nümayəndəliklərin yaranması Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında əhəmiyyətlidir.

Bildiyimiz kimi, hər il dünyanın bir sıra böyük şəhərlərində - Moskva, Berlin, Strasburq, Brüssel, Buxarest, Cenevrə, Ankara, İstanbul, Paris, Praqa, Vaşinqton, Nyu-York, Varşava, London, Haaqa, Dubay, Kiyev və Tbilisidə Xocalı soyqırımının ildönümünə həsr olunmuş aksiyalar həyata keçirilir ki, bunların hər birində təşəbbüskar Heydər Əliyev Fondudur.

## BƏŞƏRİYYƏTİN ALİ İDEALLARINA XİDMƏT

Azərbaycanın maddi və mənəvi irsinin YUNESKO-nun nadir əsərləri sırasına daxil edilməsi beynəlxalq əməkdaşlığın əsas göstəricilərindir. Belə ki, hazırda muğam ifaçılığı sənəti, Azərbaycan aşıq sənəti, Novruz Bayramı, Azərbaycan xalçası, Tar ifaçılığı sənəti, "Kəlağayı simvolizmi və ənənəvi sənəti" və s. YUNESKO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına, Çövkən-Qarabağ Atüstü Oyun ənənəsi isə YUNESKO-nun təcili qorunmaya ehtiyacı olan Qeyri-Maddi Mədəni İrs Siyahısında yer alması Azərbaycanla bu təşkilat arasında olan əməkdaşlığın davamlığını diqqətə çatdırır. Sözsüz ki, sadaladığımız nadir irsin bu siyahıya daxil edilməsində Heydər Əliyev Fondunun rolu xüsusidir.

Qeyd edək ki, Mehriban xanım Əliyevanın beynəlxalq səviyyədə gördüyü işlər cavabsız qalmamış, dünya dövlətləri, nüfuzlu təşkilatlar tərəfindən müxtəlif adlara, mükafatlara layiq görülmüşdür. Onun hər bir uğuru Azərbaycanın nailiyyəti, yüksəkliyidir. O, 2004-cü ildən Azərbaycanın şifahi xalq ədəbiyyatının və musiqi irsinin qorunub saxlanılması və inkişaf etdirilməsi sahəsindəki yorulmaz səylərinə görə YUNESKO-nun Xoşməramlı səfiri adını daşıyır. 2005-ci ildə Mehriban xanım Əliyeva "İlin qadını" seçilib. Genişmiqyaslı xeyriyyəçilik fəaliyyətinə, bəşəriyyətin ali ideallarına xidmət sahəsində yüksək nailiyyətlərinə görə "Qızıl ürək" beynəlxalq mükafatına layiq görülməsi Onun dünya miqyasında əməllərinin birmənalı olaraq qiymətləndirilməsini əyani olaraq təsdiqləyir. Azərbaycan ilə Polşa arasında dostluq münasibətlərinin inkişafındakı xidmətlərinə görə Mehriban xanım Əliyeva Polşa Respublikasının "Xidmətlərə görə" Böyük Komandor Xaçı ordeni ilə təltif edildi. Bir il sonra isə Fransaya münasibətdə göstərdiyi xidmətlərinə və nümayiş etdirdiyi sadiqliyinə görə Fransa Respublikası Prezidentinin Sərəncamı ilə "Şərəf Legionu" ordeninin zabit dərəcəsi ilə təltif edildi. Elə həmin il YUNESKO-nun "Qızıl Motsart" medalı Mehriban xanım Əliyevaya təqdim olundu. Mehriban xanım Əliyeva Türk dünyası mədəni irsinin zəngin parçası olan Azərbaycan türklərinin maddi və qeyri-maddi mədəniyyət abidələrinin qorunması və təbliği sahəsində böyük xidmətlərinə görə TÜRKSAV-ın "Türk dünyasına xidmət" mükafatına layiq görülüb. Prezident İlham Əliyevin Sərəncamı ilə Mehriban Əliyeva Azərbaycanın ictimai-siyasi və mədəni həyatında səmərəli fəaliyyətinə görə "Heydər Əliyev Mükafatı" ilə təltif edilib. Bütün bunlar Mehriban xanımın Azərbaycan xalqı qarşısında xidmətlərinə olan mükafat və qiymətdir.

2016-cı il yanvarın 21-də Avropada idmanın inkişafında göstərdiyi xüsusi xidmətlərə görə Avropa Olimpiya Komitələrinin İcraiyyə Komitəsinin qərarı ilə Avropa Olimpiya Komitələrinin ən yüksək mükafatı olan Ali Orden Mehriban Əliyevaya təqdim edilib. 2017-ci il dekabrın 26-da Rus Pravoslav Kilsəsinə göstərdiyi köməyə və Həştərxan şəhərinin abadlaşdırılmasına qayğısına görə Mehriban Əliyevaya II dərəcəli Müqəddəs Mələksima Knyaginya Olqa ordeni təqdim edilib. 2018-ci il sentyabrın 22-də Mehriban Əliyevaya idman aləmində və "Ədalətli oyunlar"ın təbliğində nümunəvi nailiyyətlərinə görə Beynəlxalq Ədalətli Oyunlar Komitəsinin "Xüsusi xidmətlərə görə" medalı təqdim olunub. 2019-cu ildə Mehriban Əliyeva Prezident Vladimir Putinin Fərmanı ilə Azərbaycan-Rusiya münasibətlərinin inkişaf etdirilməsi və möhkəmləndirilməsindəki xidmətlərinə görə Rusiya Federasiyasının "Dostluq" ordeni ilə təltif olunub. 2020-ci il fevralın 22-də mədəniyyətin, o cümlədən Müqəddəs Taxt-Tac təsisatları ilə qarşılıqlı əlaqələrin inkişafına verdiyi töhfələrə görə Mehriban Əliyevaya Papa Cəngavər Ordeninin ən ali dərəcəsi - IX Piy Ordeninin Böyük Xaçı təqdim edilib.

## "YAXŞILIĞI HEÇ VƏCHLƏ GÖZƏ ÇARPDIRMAQ OLMAZ"

Fəaliyyəti dövründə əldə etdiyi bu nailiyyətlər Fondun qeyri-hökumət təşkilatı olaraq həyata keçirdiyi layihələri ilə təkcə Azərbaycanda deyil, beynəlxalq aləmdə böyük nüfuz qazandığını göstərir. Gördüyü işlərində təvazökarlıq göstərir. "...Ömür boyu mənim həyat amalım belə olmuşdur ki, etmək istədiyin yaxşılığı heç vəchlə gözə çarpdırmaq olmaz. İndi mən bundan, demək olar ki, məhrumam. Birinci xanım statusunda mən elə bir xeyriyyə aksiyası keçirə bilmirəm ki, o, ictimaiyyətin diqqətini cəlb etməsin. Bu isə özünü göstərməkdən tamamilə uzaq adam kimi mənə kifayət qədər çətin olur", - deyə Mehriban Əliyeva bildirib. Mehriban xanım Əliyeva həqiqətən gördüyü işlərlə kimliyini, böyüklüyünü bu dünyada gördüyü işlərlə reallaşdırır. Həyat və vəzifə missiyası bir etalon olaraq cəmiyyətə təqdim olunur. Bu təqdimatda Azərbaycan və onun inkişafı dayanır.

Heydər Əliyev Fondu ölkəmizin çətin zamanında xalqımıza dəstək oldu. Heydər Əliyev Fondu Azərbaycanda koronavirusun geniş yayılmasının qarşısının alınması istiqamətində dövlət tərəfindən həyata keçirilən tədbirlərə töhfə olaraq Koronavirusla Mübarizəyə Dəstək Fonduna 500 min manat vəsait köçürdü. Bununla yanaşı, Heydər Əliyev Fondu daim öz himayəsində saxladığı bir sıra müəssisələrə koronavirusla mübarizə sahəsində dəstək göstərdi.

## "QARABAĞ BÖLGƏSİNDƏKİ ABADLIQDAN ƏSƏR-ƏLAMƏT QALMAMIŞDIR"

Fondun tarixi, mədəniyyət və dini abidələrin qorunub saxlanılması və bərpası istiqamətindəki fəaliyyəti hər kəsə məlumdur. Odur ki, Heydər Əliyev Fondu qədim Qarabağ torpağında dini abidələrimizin, məscidlərimizin bərpası üzrə yeni layihəyə başlayıb. Fondun prezidenti Mehriban Əliyeva rəsmi "İnstagram" səhifəsindəki paylaşımında bildirmişdi ki, işğaldan azad olunmuş torpaqlarımızdakı hazırkı mənzərəni hər birimiz ürək ağrısı ilə seyr edirik: "Erməni təcavüzkarları bu illər ərzində şəhər və rayonlarımızı, oradakı yaşayış və inzibati binaları, bütün infrastrukturu dağıtmış, təbii sərvətlərimizi talan etmiş, bu ərazilərdəki dini, tarixi, mədəni abidələrimizi vandalizm aktlarına məruz qoymuşdur. Bir vaxtlar Azərbaycanın dilbər guşəsi olan Qarabağ bölgəsindəki abadlıqdan əsər-əlamət qalmamışdır".

Mehriban Əliyeva qeyd etmişdir ki, layihə çərçivəsində yerli və xarici mütəxəssislərin iştirakı ilə bölgədəki ziyarətgahlarımızın bərpası, konservasiyası və yenidən qurulması həyata keçiriləcəkdir. İşğal illəri ərzində Şuşa şəhərində və Ağdam rayonunda dağıntılara məruz qalmış dini ibadət yerlərinin bərpası üzrə müvafiq işlərə artıq başlanılmışdır.

18 illik fəaliyyəti dövründə əldə etdiyi bu və ya digər nailiyyətlər fondun qeyri-hökumət təşkilatı olaraq təkcə Azərbaycanda deyil, beynəlxalq aləmdə böyük nüfuz qazandığını göstərir. Azərbaycanın çiçəklənməsi, beynəlxalq nüfuzunun artmasına böyük töhfələr verən Heydər Əliyev Fondunun gələcək fəaliyyətinin əsasında qeyd etdiyimiz məsələlərin daha da geniş bir planda həyata keçirilməsi dayanır.

***NƏZAKƏT ƏLƏDDİNQIZI***

**_Sağlam düşüncəli ictimai rəy zaman-zaman ölkəmizə, dövlətimizə qarşı müxtəlif tipli qarayaxma və qərəz kampaniyalarının şahidləri olublar. Lakin edilən hər bir cəhdlərin qarşısı məhz xalqın dövlətə, hakimiyyətə olan yüksək etimadı sayəsində alınıb, əsasən də, Qərbin anti-Azərbaycan xislətli dairələrindən yönələn siyasi təzyiq mexanizmləri alt-üst edilib. Görünür, öz kirli maraqlarını Azərbaycandakı psevdomüxalifət vasitəsi ilə həyata keçirə bilməyəcəyini anlayan qərbli siyasətbazlar yenidən "5-ci kolon" ideyasından istifadə etməklə kirli əməllərini reallaşdıracaqlarını sanırlar. Əbəs deyil ki, bu məsələdə külli miqdarda maliyyə vəsaitləri də ayrılıb._**

# "5-ci kolon"un fəallaşması: qara qüvvələr yenidən iş başında!

## Tapşırıq "yuxarı yerdən" - ABŞ-ın Dövlət Departamentindən və NED-National Endowment for Democracy fondundan gəlib...

İndi isə keçək faktlara və sözügedən məsələni daha dərindən araşdıraq. Məlumdur ki, müxtəlif müxalifətyönlü (radikal) siyasi partiyalar, yaxud hərəkatlar adı altında var-gəl edən "5-ci kolon" fəalları əllərinə düşən ən xırda məişət hadisəsini belə şişirtməklə onu "böyük anti-demokratik problem" kimi təqdim edir, üstəlik bu vasitə ilə qazanclar əldə etməyə çalışırlar. Məhz planlı şəkildə idarə edilən həmin ünsürlər icazəsiz aksiyalar, qanunlara, hüquqa tabe olmamaq kimi fəaliyyətlərini tətbiq etdikdən sonra Qərbin müəyyən dairələri dərhal dövlətimizə qarşı ağlagəlməz "hesabatlar", "qətnamələr" və s. kağız parçaları hazırlayırlar. Yuxarıda da qeyd olunduğu kimi, məqsəd regionda və dünyada öz yüksək, nüfuzlu yerini tutan, müstəqil siyasət həyata keçirən Azərbaycan hakimiyyətini hədəfə almaqdan ibarətdir.

Yeri gəlmişkən, bənzər ittihamlar demək olar ki, ildən-ilə dəyişmir və eynilik təşkil edir və bu da belə qənaətə gəlməyə zəmin yaradır ki, bu kimi qərəzli yazı-pozular sanki Qərb dairələrinin rəflərində hazır vəziyyətdə saxlanılırlar və onlar üçün müvafiq zaman yetişdikdə dərhal ölkəmizə, dövlətimizə qarşı tətbiq edilirlər. Bu baxımdan, son günlər fəallaşmış "5-ci kolon" fəalları guya Azərbaycanda insan hüquqlarının pozulduğu, ictimai fəllara təzyiqlərin təşkil olunduğu, onlara qarşı zorakılıq həyata keçirdiyi görüntüsü yaratmaq istəyirlər. Necə deyərlər, onlara tapşırıq "yuxarı yerdən" - okeanın o tayından gəlib...

Bu günlərdə isə məlum olub ki, ABŞ-ın NED-National Endowment for Democracy fondu Azərbaycan istiqamətində 2022-ci il üçün ayırdığı təsdiqlənmiş qrantın ümumi məbləğini müəyyən edib - 970, 235 dollar! Bu məbləğin 398,837 min dolları isə Bakıda və regionlarda "vətəndaş iştirakçılığının aktivliyinin artırılması", "insan hüquqlarının müdafiəsi" adı altında etirazların təşkili, "insan hüquqlarının qorunmasının monitorinqi" və digər bu kimi bənzər məsələlərin maliyyələşdirilməsi ilə bağlı layihələrin gerçəkləşdirilməsinə yönəldilib. Təkcə, həmin məqsədləri incələsək biz nəyi müşahidə edə bilərik?

**1."Vətəndaş aktivliyinin artırılması" - nəinki paytaxt Bakıda, eləcə də regionlarda hakimiyyətə qarşı "narazı qrupların" yaradılaraq onların küçələrə çıxarılması, itaətsizlik və s...**

**2. "İnsan hüquqlarının qorunması monitorinqi" - ABŞ və s. Qərb səfirliklərinin ölkənin hüquq sitеminə və qanunlarına müdaxiləsi və öz maraqları kontekstində diktə etmək cəhdləri**

Qeyd etmək yerinə düşərdi ki, məhz ABŞ-ın NED-National Endowment for Democracy Fondunun 2022-ci ildə Azərbaycana ayırdığı təsdiqlənmiş qrantlarında may ayında təcili qrantların maliyyələşdirilməsi ilə bağlı ayrıca bənd var. NED və bu tip araqarışdıran institutların təcrübəsində "təcili qrantların ayrılması" hansısa prosesi təcili maliyyələşdirmək üçün nəzərdə tutulur. NED-in verdiyi elandan da bəlli olur ki, təcili qrantların ayrılması mayın 25-nə (!) qədər olan dövrü əhatə edir. Buradan isə belə nəticə hasil etmək olar ki, NED-in əsas marağı cari ayın sonlarına yaxın müddət ərzində məhz radikal və dağıdıcı müxalifətin əli ilə ölkədaxili mövcud sabitliyə xələl vurmaqdan ibarətdir. Ümumilikdə götürəndə isə bunun bir adı var - xain təxribat və ya sabotajçılıq!

Özü də bu qurum təcili surətdə (!) fəaliyyət planlarını tətbiqetmə tələbi ilə əsas məqsəd olaraq Vətən müharibəsindən qalibiyyətlə ayrılmış Azərbaycanın regional iqtisadi nəhəngə çevrilməsinin qarşısını almağa çalışdığını gizlətmir, eləcə də bu kimi məsələlərdə diktə edən tərəf kimi çıxış etməyə cəhdlər göstərir. Burada müxtəlif iri layihələrdə iştirakdan tutmuş digər bir sıra maraqlar dayanmaqdadır. Daha dəqiq desək, bütün bunların əsasında dayanan yeganə amil Azərbaycanı sıxışdırmaq və regionda öz maraqlarını ifadə etmək faktorları dayanır.

## Azərbaycanlıların işğal faktı altında pozulan hüquqları barədə danışılarkən NED harada idi?

Ən gülünc və istehza doğuran məsələ isə budur ki, NED həmin məsələdə "5-ci kolonu" istifadə etməklə cılız bir məişət olayını siyasiləşdirməyə çalışır. Əbəs deyil ki, sözügedən təcili qrant layihəsini icra edən "5-ci kolon" bilavasitə Aytən Məmmədova ilə bağlı baş vermiş məişət hadisəsini qabardır və bu kimi bir neçə digər hadisəni də bu hadisənin gözünə qatması ilə guya Azərbaycanda insan hüquqlarının kobud şəkildə pozulduğu görüntüsü yaratmağa cəhd göstərir.

Kiçik bir haşiyə çıxaraq NED-ə bir sual ünvanlaya bilərik ki, görəsən torpaqları 30 il işğal altında qalarkən, bir milyon qaçqını və köçkünü öz doğma yurd-yuvalarından məhrum olarkən, onların yaşamaq hüquqları məhdudlaşdırılarkən, minlərlə insanımız işğal siyasətinin qurbanlarına çevrilərkən, 44 günlük ikinci Qarabağ müharibəsində şəhər və kəndlərimiz, mülki vətəndaşlarımız - qocalar, qadınlar, uşaqlar ballistik raket atəşlərinə məruz qalıb həyatlarını itirərkən həmin təşkilat harada idi? Niyə ən azından işğalçı Ermənistana qarşı cınqırını belə çıxarmadı, qətnamə, hesabat hazırlamadı? İndi nə yadlarına düşdü ki, birdən-birə məişət hadisəsindən dərhal (!) yararlanmaqla bataqlıq suyu vasitəsi ilə kirli palçığını yoğurmağa başladı?! Yuxarıda da qeyd edildiyi kimi məqsədlər bəllidir!

**...Və bütün bunlar bizlərə Avroviziya, Avropa Olimpiya Oyunları, daha əvvəlki Formula 1 yarışları öncəsi yaradılan hay-həşirləri xatırlatmırmı?**

Məsələn, o da bəllidir ki, iyunun 10-12-də Bakıda Formula 1 yarışması start götürəcək. Hazırkı fəallıq, Aytən Məmmədova ilə bağlı baş verən hadisə, birdən birə bir qrup şəxsin meydana çıxması və bəyanat yayması, ABŞ-ın Azərbaycandakı səfirliyinin (?!) buna dərhal reaksiyası, sonda isə hadisənin hətta ABŞ Dövlət Departamentinin diqqət mərkəzinə gəlməsi, bunların nəticəsi olaraq həmin "fəalların" aksiya təyin etməsi beynəlxalq yarışın keçiriləcəyi günlərdə təşkil olunacaq anti-Azərbaycan kampaniyaya fakt-əsaslar formalaşdırmaq məqsədi güdür.

**...Və bütün bunlar bizlərə Avroviziya, Avropa Olimpiya Oyunları, daha əvvəlki Formula 1 yarışları öncəsi yaradılan hay-həşirləri xatırlatmırmı?**

**NED-in, ABŞ-ın Ermənistandakı səfirliyinin, habelə Dövlət Departamentinin aksiyaları zorakılıqla dağıdan Ermənistan hakimiyyətinə qarşı səsləri niyə yüksəlmir?!**

Yaxud, o da maraqlıdır ki, artıq bir həftədir Ermənistanda küçə yürüşləri, kütləvi aksiyalar səngimir, insanların, ictimai fəalların həbsi, polis zorakılığı altında döyülmə faktları, aksiyaların qəddarcasına dağıdılarkən NED-in, ABŞ-ın Ermənistandakı səfirliyinin, habelə Dövlət Departamentinin Ermənistan etiraz aksiyalarını zorakılıqla dağıdan hakimiyyətinə qarşı səsləri niyə yüksəlmir?!

Əldə etdiyimiz daha bir məlumata görə, hazırda Azərbaycana qarşı iddiaların əsasında duran səbəblərdən biri də, Ermənistanda Sorosun "uşaqlarının" törətdiyi özbaşınalqılardan diqqəti yayındırmaqdır. Yəni Ermənistanda baş verən biabırçılıqlara göz yuman ABŞ-ın Azərbaycanda adi bir məişət hadisəsinə Dövlət Departamenti səviyyəsində reaksiyasına başqa ad vermək mümkün deyil.

Və yuxarıda qeyd olunduğu kimi, ortada yalnız bir danılmaz fakt dayanır - Qərbdəki ermənipərəstlər 44 günlük müharibədə Azərbaycanın tarixi Zəfərini, ölkəmizin inkişafını, beynəlxalq nüfuzunu, fəallığını həzm edə bilmirlər. Eyni zamanda, təkcə ABŞ-ın özündə il ərzində ictimai fəallar, jurnalistlər də daxil olmaqla minlərlə cinayət hadisəsi, hüquq pozuntuları baş verir. Amma bunların haqqında danışan belə yoxdur.

Ötən illərə nəzər salsaq ABŞ-da keçirilmiş prezident seçkilərindən sonra sabiq prezident Donald Trampın tərəfdarlarının seçki maxinasiyaları ilə bağlı etiraz aksiyaları keçirmələri və ölümlə, xəsarətlərlə nəticələnən aksiyaların vəhşi üsullarla dağıdılması, bunan əvvəl isə "Çikaqonu azad et!" şüarı ilə ABŞ-ın bütün ştatlarını bürüyən etiraz aksiyalarının dağıdılması, jurnalistlərin həbsi və döyülmələri, habelə qaradərililərə qarşı polis qəddarlığı - bütün bunlar ABŞ-ın bəlli mərkəzləri üçün önəmli deyilmi?!

Görünən odur ki, başda viktoriya nulandlar olmaqla ABŞ Dövlət Departamentində və oraya bağlı institutlarda yer alan sorosçular heç cür Azərbaycanı unuda bilmirlər. Eyni kobud metodlarla, eyni bəsit və heç bir tənqidə dözməyən səbəblərlə Azərbaycana qarşı növbəti qarayaxma kampaniyası təşkil edilir. Hətta yekun olaraq biz sualla paralel şəkildə belə bir məntiqi sonluq da irəli sürə bilərik - ABŞ-ı vaxtilə Azərbaycandan məlum çirkin əməllərinə görə qovulmuş Corc Sorosmu idarə edir..?!

**_Rövşən RƏSULOV_**

*P.S. Bəli, Azərbaycan ictimaiyyəti belə çirkin oyunları çox görüb və onların ölkənin ictimai rəyinə təsir edəcəyini, bununla hansısa məqsədlərə nail olunacağını düşünənlər növbəti dəfə yanılacaqlar və yaxşı olardı ki, "5-ci kolon"da yer alan xainlər yığnağı da bəri başdan çata bilməyəcəkləri məqsədlərindən əl çəksinlər...*




*Azərbaycan ictimaiyyəti belə çirkin oyunları çox görüb və onların ölkənin ictimai rəyinə təsir edəcəyini, bununla hansısa məqsədlərə nail olunacağını düşünənlər növbəti dəfə yanılacaqlar*

ANALİTİK - AKTUAL

# Ermənistan repressiyalarına QƏRB MÖVQESİZLİYİ



***Nikol Paşinyanın istefası tələbi ilə meydanlara çıxan Ermənistan vətəndaşlarına qarşı güc tətbiq edildiyi göz önündədir və bunu hətta həmin ölkənin mətbuat səhifələri də açıq-aşkar yazır, hansıki bu dünyanın diqqətindən yayına bilməz. Az qala iki həftəyə yaxındır ki, davam edən aksiyalar zamanı Ermənistanda nələrin baş verdiyi də dünya ictimaiyyətinə bəllidir və bu ölkə hakimiyyəti özü belə vətəndaşlara qarşı tətbiq etdiyi təzyiqləri gizlətmir, əksinə, nümayişkəranə şəkildə edir.***

Ermənistanda repressiyalar müşahidə edilir və bu artıq adi hal kimi davam edir. Bəs nəyə görə bu ölkədə müşahidə olunan repressiyalara aparıcı Qərb dövlətləri, özlərini demokratiyanın qoruyucusu kimi göstərən qurumlar, demokratik təsisatlar və insan haqlarının müdafiəçisi rolunda çıxış edənlər susurlar, mövqesizlik nümayiş etdirirlər?

Bir zamanlar küçə nümayişçisi kimi tanınan, sonra isə Qərbin marianeti olduğu bəlli olan Nikol Paşinyan meydanlarda belində çanta aksiya keçirəndə Qərb buna laqeyid deyildi. Necə oldu ki, indi həmin Nikol əleyhinə aksiya keçirənləri, onların təzyiqlərə, repressiyalara məruz qalmalarını indi Qərb görməməzliyə vurur? Bu hansı mövqedir, yaxud mövqesizlikdir ki, Qərb açıq-aşkar ortaya qoyur? Yüzlərlə etirazçı erməni polis məntəqələrinə zorla aparılanda niyə bir zaman Paşinyanın müdafiəsinə qalxan Qərb susur? Buna ikili standartdan, mövqesizlikdən başqa nə ad vermək olar?

Ermənistanda müxalifətə, əlahxüsus keçmiş hakimiyyət nümayəndələrinə, onların tərəfdarlarına qarşı açıq-aşkar təzyiqlər edilir. Hətta Paşinyanın bir zaman özünün təyin etdiyi polis rəisinin, Valeri Osipyanın da etiraz aksiyalarında iştirak etməsi səbəbindən saxlanılması barədə xəbər bu ölkənin mətbuat səhifələrində yayımlanıb. Bu isə o deməkdir ki, Paşinyan hakimiyyəti heç kimə güzəşt edilməyəcəyi mesajını verir və bundan zərrə qədər çəkinmədiyini də bəyan edir. Bu ölkənin mövcud hakimiyyəti belə hərəkətlərlə bir növ, onlara qarşı hər zaman olduğu kimi, bundan sonra da qətiyyət göstəriləcəyini aydın şəkildə nümayiş etdirir, çünki Qərbin mövqesizliyinə, ikili yanaşmasına əmindir və buna arxalanır. Paşinyan hakimiyyəti əmindir ki, Qərbə heç də demokratiya lazım deyil, əksinə, bu məsələdə də əvvəlki kimi öz maraqlarını güdəcək. Məhz bu arxayınlıq və əminlik Ermənistanın mövcud hakimiyyətinin apardığı repressiyalarda özünü büruzə verir. Ermənistanda baş verənlər, qeyi-demokratik proseslər müzakirə mövzusu deyil. Onsuz da bu ölkədə demokratiyanın heç zaman olmadığı bəlli məsələdir, baxmayaraq ki, özləri özlərini demokratik cəmiyyət kimi göstərməyə çalışırlar. Müzakirə mövzusu bu qanunsuzluqlara, bu repressiyalara, insan haqlarının bu şəkildə pozulmasına Qərbin, demokratik təsisatların susması və mövqe bildirməməsidir.

Etiraz aksiyalarında iştirak etdiklərinə görə polis məntəqələrinə aparılanlar aydın şəkildə bəyan edirlər ki, onlara qarşı zor tətbir edilir, qanunsuzluğa yol verilir və yenə də Qərbin heç bir reaksiyası yoxdur. Ən dəhşətlisi isə odur ki, etirazçılar arasında olanlardan bir nəfərinin ölümü təsirsiz olub və mövqesizlik hələ də davam edir. Başqa ölkələrdə qanunsuz aksiya keçirən, hüquq pozuntularına yol verən nümayişçilərin qanunlara riayət olunmasına çağırış edilməsi belə Qərb tərəfindən şişirdildiyi halda, Ermənistanda aksiya iştirakçısının ölümü laqeyliklə qarşılanırsa, buna ancaq ikili standart, mövqesizlik adı vermək olar. Əgər Azərbaycanda təsdiqlənmiş konkret bir cinayət əməlinə görə hansısa cinayətkar saxlanıldığı halda, barəsində qanunla müəyyən edilmiş qaydada inzibati tədbirlər görüldüyü təqdirdə Qərb hay-küy qoparırsa, Ermənistanda isə nümayişçinin ölümünə belə susursa, deməli bu, sadəcə mövqesizlikdir, ədalətsiz yanaşmadır və hətta qərəzdir, hansıki heç bir məntiqə sığışa bilməz.

Sual oluna bilər ki, bəs nəyə görə özünü bir zaman xalqın nümayəndəsi kimi qələmə verən Nikol Paşinyanın, onun hakimiyyətinin öz xalqına qarşı təzyiqlər tətbiq etməsi, repressiyaları Qərbin gözünə görünmür? Bu həmin o Qərb deyildimi Nikolun əlində gördüyü sarğını, yeni yaralanmasını əlində bayraq etmişdi? İndi nə baş verdi ki, həmin o Qərb bir aksiya iştirakçısının ölümünü belə ya görmür, ya da görməməzliyə vurur? Bir neçə il bundan əvvəl küçə nümayişçisinin hər addımını izləyən, hər addımından da xəbəri olan Qərbin gözü indi bağlandı, yoxsa artıq görə bilmir? Təbii ki, görmək sərf eləmir, çünki gördüyü və etiraf etdiyi halda Qərb Ermənistanın anti-demokratik dövlət, ölkə olduğunu etiraf etməli olar. Bunu isə, görünür istəmir, əks halda etiraf edərdi.

Müşahidə olunan mənzərə və məntiqi nəticə onu deməyə əsas verir ki, Qərb bu ölkə haqqında yaratmaq istədiyi görüntünün yalançı olduğunu etiraf etməkdən çəkinir. Bu ölkənin demokratiyadan uzaq bir ölkə olduğu barədə hətta fikir belə ifadə etmək niyyətində deyil. Bir sözlə, Qərb həqiqəti etiraf etmək fikrində deyil və məhz ona görə susqunluq münayiş etdirir. Reallıq, həqiqət qalır bir tərəfdə, onlar isə başqa tərəfdə, amma bunu da qəbul edirlər. Bunun isə bircə adı, bircə qiyməti var və bu da, Qərb mövqesizliyi, ikili yanaşmadır.

***İnam Hacıyev***

# Siyasi dialoq prosesləri çərçivəsində Prezident Administrasiyasında növbəti görüş keçirilib



Siyasi dialoq prosesləri çərçivəsində Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyevin siyasi partiya sədrləri ilə görüşləri artıq iki ildir davamlı şəkildə təşkil olunur. Növbəti görüş mayın 11-də Azərbaycan Milli İstiqlal Partiyasının sədri Arzuxan Əlizadə ilə keçirilib. Bu barədə AZƏRTAC-a Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsindən bildiriblər.

Görüşdə şöbə müdiri Ədalət Vəliyev dünyada cərəyan edən geosiyasi proseslərin ölkədə siyasi həmrəylik mühitinin qorunmasını şərtləndirdiyini xüsusi vurğulayıb. "Bilavasitə milli maraqlara cavab verən məsələlərdə siyasi partiyalar ilə əməkdaşlıq ölkədə reallaşan siyasi dialoqun prioritet istiqamətlərindən biridir", - deyən Ədalət Vəliyev qeyd edib ki, Azərbaycana qarşı aparılan informasiya təxribatları ilə mübarizədə siyasi partiyaların bütün potensialları səfərbər olunmalıdır. 1992-ci ildə yaradılmış Azərbaycan Milli İstiqlal Partiyasının Avropa Xalq Partiyası da daxil olmaqla geniş beynəlxalq əməkdaşlıq əlaqələrinə malik olduğunu qeyd edən şöbə müdiri bildirib ki, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinin diqqətinə çatdırılmasında mövcud əlaqələrdən səmərəli şəkildə istifadə olunmalıdır.

Azərbaycan Milli İstiqlal Partiyasının sədri Arzuxan Əlizadə ölkəmizdə yeni siyasi konfiqurasiyanın formalaşmasını yüksək qiymətləndirib, bu prosesin demokratik dəyərlərin möhkəmləndirilməsi, siyasi mədəniyyətin yüksəlməsinə xüsusi dəstək olduğunu bildirib. O, ölkədə bütün siyasi qüvvələrin ümummilli məsələlərdə, dövlətçiliyin möhkəmlənməsində bir güc kimi olmasının vacibliyini qeyd edib.

Görüşdə digər məsələlərlə yanaşı, İkinci Qarabağ müharibəsində qazanılmış Qələbədən sonra regionda yaradılmış yeni reallıq mövzusu da geniş müzakirə olunub. Bildirilib ki, qazanılmış Qələbə və ölkənin müxtəlif iqtisadi təşəbbüsləri sayəsində Azərbaycanın dünya siyasi xəritəsində çəkisi əsaslı şəkildə artıb. Dayanıqlı inkişaf naminə iqtidar-müxalifət münasibətlərinin məhz konstruktiv əməkdaşlıq formatında inkişaf olunması üçün qarşılıqlı səylər artırılmalıdır. Bu cür əməkdaşlıq formatı əldə olunmuş uğurların qorunmasına xidmət edəcək və təhdid xarakterli müxtəlif təxribatların qarşısının alınmasına da töhfə verəcək.

Administrasiya rəsmisi Azərbaycan Milli İstiqlal Partiyasının ölkəmizdə həyata keçirilən iqtidar-müxalifət dialoqunda fəal iştirak etməsini, o cümlədən ümummilli məsələlərlə bağlı birgə bəyanatlara və müraciətlərə qoşulmasını, siyasi partiyaların birgə iclaslarında və azad olunmuş ərazilərə birgə səfərlərdə iştirakını, siyasi partiyalar haqqında qanunvericiliyin təkmilləşdirilməsi ilə bağlı təkliflər verməsini, həmçinin Mərkəzi Seçki Komissiyasına maliyyə hesabatlarının vaxtında və tələb olunan qaydada təqdim etməsini yüksək qiymətləndirib və bu halların partiyanın imicinə müsbət təsir edən önəmli amillər olduğunu bildirib.

Söhbət zamanı Arzuxan Əlizadə rəhbərlik etdiyi partiyanın 30 illik yubileyi ilə əlaqədar müvafiq tədbirlərin keçirilməsinə hazırlaşdıqlarını qeyd edib.

# Jan Perrən: "Prezident İlham Əliyev Ulu Öndərin ən ümdə arzusunu reallaşdırdı"



***Heydər Əliyev haqqında eşitdikdən sonra belə bir böyük şəxsiyyəti görmək istəyim bitib-tükənmirdi. Azərbaycan müstəqilliyini bərpa edəndən sonra Fransanın bu ölkədə ilk səfiri təyin olundum. Həmin vaxt Azərbaycan çətin vəziyyətdə, hətta parçalanmaq təhlükəsi ilə üz-üzə idi. Bu fikirləri ulu öndər Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr edilmiş anım tədbirində Fransanın ölkəmizdə ilk səfiri olmuş Jan Perrən AZƏRTAC-a müsahibəsində söyləyib.***

Sabiq səfir bildirib ki, o, həmin çətin vaxtlarda Heydər Əliyevi görmək üçün Naxçıvana gedən ilk səfir olub. Naxçıvan səfəri onun xatirəsində daim qalmaqdadır. Həmin səfərdən sonra Heydər Əliyevlə mütəmadi olaraq görüşüb. J.Perrən qeyd edib ki, Naxçıvanda Heydər Əliyevdən ayrılarkən onu tezliklə Bakıda yenidən görmək arzusunu ifadə edib və onun bu arzusu qısa müddətdən sonra gerçəkləşib.

Səfir Azərbaycanı Fransaya Heydər Əliyevin tanıtdığını vurğulayaraq, Ulu Öndərin bu ölkəyə ilk səfərindən, erməni lobbisinin Azərbaycan əleyhinə apardığı təbliğatdan söz açıb. Qeyd edib ki, o vaxt Azərbaycanı çətin vəziyyətdən, parçalanmaq təhlükəsindən yalnız böyük siyasi xadim Heydər Əliyev çıxara bilərdi. O, hakimiyyətə gələndən sonra Azərbaycanda tərəqqinin şahidi olduq. Ölkə bütün sahələrdə dirçəlməyə başladı.

Jan Perrən bildirib ki, Heydər Əliyev ölkəni böhrandan çıxardı və ona layiq olduğu nüfuzu qazandırdı. "Əsrin müqaviləsi" müasir Azərbaycanın inkişafına zəmin yaratdı, ölkəni iqtisadi baxımdan dirçəltdi və beynəlxalq aləmdə tanıtdı. Heydər Əliyev kimi böyük şəxsiyyətlərin layiqli qiymətini zaman verir. Diplomat vurğulayıb ki, Azərbaycanın müstəqilliyi, torpaqların azad olunması Ulu Öndərin ümdə arzusu idi. Prezident İlham Əliyev Ulu Öndərin ən ümdə arzusunu reallaşdırdı, Azərbaycan torpaqlarını işğaldan azad etdi.

# Məktəblilər niyə intihara meyillidir?

## CƏMİYYƏTİN BAXIŞI - SORĞU

*Son dövrlərdə ölkəmizdə məktəblilər arasında intihar hallarının sayı artıb. Deyəsən, dövr dəyişdikcə problemlər də dəyişir, ya da müasir gənclik bir çox problemin həll yolunu axtarmaq əvəzinə, onlar üçün ən asan yol olan intiharı seçirlər. Ömürlərinin ən gözəl çağında problemlərinin həlli yoxmuş kimi intihar edib həyatlarını məhv edirlər. Nəinki öz həyatlarını məhv edir, geriyə qalan ailələrini də bədbəxt edirlər. Bəs, görəsən, nə üçün ən kiçik bir problemdə intiharı düşünürlər? Onları buna nə məcbur edir? Bu problemlərin kökündə nə durur? SİA olaraq şəhər sakinləri arasında sorğu keçirdik:*



**Şəhər sakini Elmira Ağayeva:** "Əslində, şagirdlərin intiharının ən böyük günahı valideynlərindədir. Uşaqları ilə maraqlanmırlar. Cəmiyyətdə baş verən hadisələr də uşaqları təhrik edir. Sosial şəbəkələr də uşaqların psixologiyasını pozur. Valideynlər uşaqları ilə maraqlanmalıdır, onlara zaman ayırmalıdırlar".



**Şəhər sakini İntiqam Məmmədov:** "Uşaqların psixologiyasını anlamaq çətindir. Gərək psixoloq yanına getsinlər. Məktəb psixoloqları, müəllimlər uşaqlarla maraqlanmalıdırlar. İntihara meyilli olmalarının səbəblərini psixoloqlar daha yaxşı bilər. Amma uşaqlarla da maraqlanmaq lazımdır".

**Şəhər sakini Gülşad Məmmədova:** "Ailədən çox şey asılıdır. Amma ən əsası sosial şəbəkələrdir. Cəmiyyətdə o qədər əxlaqsızlıqlar yayılıb ki, uşaqlar bunlardan xeyirli bir nəticə götürə bilməzlər. Ətraf mühit də onların həyatına, psixologiyasına təsir edir. Gərək valideynlər uşaqlarını nəzarətdə saxlasınlar".





**Şəhər sakini İkram Qurbanov:** "Ailə tərbiyəsi, müəllim tərbiyəsi olmalıdır. Uşaqlara düzgün təlim keçirilməlidir. İnternetin, sosial şəbəkələrin çox böyük təsiri vardır. Bunların hər biri uşaqların psixologiyasına təsir edir. Uşaqlara diqqətlə yanaşmaq lazımdır".



**Şəhər sakini Günay Babayeva:** "Düşünürəm ki, internetdən çox istifadə, xarici filmlər bunların hər biri uşaqların psixologiyasına təsir edir. Lazımlı, lazımsız hər şeyə baxırlar. Ölümü bu qədər asan hesab edirlər. Elə bilirlər ki, ölüm hər şeyə çarədir. Elə bilirlər ki, avropalaşmaq budur. Həm də valideynlər ilə uşaqlar arasında da ünsiyyət çox az olur, onlarla maraqlanmırlar".



**Şəhər sakini Mukran İsmayılov:** "İntihara meyil göstərmələrinin bir çox səbəbi ola bilər. Elə olur ki, valideynlər uşaqlarını çox sıxırlar. İndiki gənclər, uşaqlar hər şeyi özlərinə problem edirlər. Təbii ki, buna sosial şəbəkələrin, xüsusilə də "Tik-tok"-un çox böyük rolu var".

***Müəllif: Abutel İlhamqızı***

# İtaliyalı senator: "Azərbaycan enerji resurslarının tədarükü baxımından İtaliya üçün mühüm əhəmiyyət kəsb edən ölkədir"

***Azərbaycan enerji resurslarının tədarükü baxımından İtaliya üçün mühüm əhəmiyyət kəsb edən ölkədir. Bu sözləri AZƏRTAC-a müsahibəsində İtaliya Parlamentində Azərbaycan-İtaliya Parlamentlərarası Dostluq Qrupunun sədri, senator Stefano Luçidi deyib.***



"Bu il biz İtaliya ilə Azərbaycan arasında diplomatik əlaqələrin qurulmasının 30 illiyini qeyd edirik. Otuz il ərzində ölkələrimiz arasındakı səmimi dostluq münasibətləri hazırda strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib. Azərbaycan İtaliyanın neft təchizatında birinci, təbii qaz tədarükündə isə üçüncü yerdə qərarlaşıb. TAP təbii qaz boru kəməri sayəsində Azərbaycan İtaliyanın təbii qaz təchizatında etibarlı tərəfdaşa çevrilib. İtaliya münaqişə dövründə Azərbaycanın haqlı mövqeyini dəstəkləyib, hazırda isə postmüharibə dövrünü yaşayırıq və bu, əlaqələrin inkişafının yeni müstəviyə keçməsi üçün fundamental əhəmiyyət kəsb edir. Hər iki ölkənin sənaye sahəsində, xüsusilə də kiçik biznes sektorlarında tərəfdaşlıq əlaqələrinin inkişafında böyük perspektivlər var", - deyə italiyalı senator bildirib.

***"Prezident İlham Əliyev torpaqlarımız işğaldan azad olunduqdan az müddət keçdikdən sonra dəfələrlə bu ərazilərə səfər edib. Səfərlər zamanı ölkə başçımız işğaldan azad edilmiş ərazilərimizin ictimaiyyət nümayəndələri ilə görüşüb, gələcəkdə yenidən qurulacaq şəhər və kəndlərimizin görüntüsündə onların da təkliflərini dinləyib". Bu sözləri SİA-ya açıqlamasında deputat Kamilə Əliyeva deyib.***




# Qarabağ və Şərqi Zəngəzur dünyanın ən gözəl diyarına çevriləcək

Onun sözlərinə görə, bir ildən çoxdur ki, Qarabağ və Şərqi Zəngəzurda quruculuq işlərinə start verilib: "Yenidən qurulacaq bütün kənd və şəhərlərimizin bərpası əvvəlcədən hazırlanmış plan üzrə aparılacaq. Şəhərlərimiz ölkə başçısının təstiq etdiyi baş plan əsasında yenidən hazırlanacaq. Artıq Ağdam və Füzuli rayonlarının baş planı hazırlanıb. Digərlərinin də baş planı bu yaxınlarda təstiqlənəcək. Quruculuq işləri və burada təməli qoyularaq istifadəyə veriləcək bütün sosial obyekt və binaların açılışında cənab Prezident özü şəxsən iştirak edir. Plandan kənar heç bir iş aparılmır və aparıla da bilməz".

Kamilə Əliyeva sözlərinə belə davam edib: "Cənab İlham Əliyevin özünün də qeyd etdiyi kimi, Qarabağ və Şərqi Zəngəzur dünyanın ən gözəl diyarına çevriləcək. Ölkə başçımız hər zaman gənclərə güvənib və ölkənin gələcək inkişafının onlardan asılı olduğunu qeyd edib. Cənab Prezident işğaldan azad olunmuş rayonlarda xüsusi nümayəndələr təyin edir. Təyinat alan bu şəxslər gənc olsalar da, çox savadlıdırlar. Onlar cənab Prezidentin etimadını doğruldaraq Vətənə, xalqa sədaqətlə xidmət etməlidirlər.

Yaxın vaxtlarda Böyük Qayıdış planına uyğun olaraq ilk dəfə Zəngilanın Ağalı kəndinin sakinləri öz yurdlarına dönəcək. Bildiyimiz kimi, bu kənd "Ağıllı kənd" prinsipi əsasında qurulub və sakinlərin buraya köçməsi ilə onların ev və işlə təmin olunması üçün hazırlıq işləri aparılır.

Ümumiyyətlə, işğaldan azad edilmiş torpaqlarımız planlı şəkildə elə qurulacaq ki, onlar burada heç bir problemlə üzləşməsinlər. Yaşayış evləri ilə yanaşı məktəb, bağçalar və xəstəxanalar tikiləcək. İnsanlar işlə təmin olunacaq. Kənd təsərrüfatı ilə bağlı böyük planlar olacaq. Bir sözlə, buraya kpçmüş insanlar əvvəlki yaşayışından da qat-qat yaxşı yaşayacaq".

***Ayşən Vəli***

# Zurab Abaşidze: "Bu gün Gürcüstanın və bütövlükdə regionun əldə etdiyi imkanlar, nailiyyətlər Heydər Əliyevin xidmətləridir"



Azərbaycanın Xəzər dənizində hasil etdiyi karbohidrogen ehtiyatlarının Gürcüstan ərazisindən keçməklə dünya bazarına çatdırılmasında və bu yolla ölkəmizin tranzit funksiyasını əldə etməsində Heydər Əliyevin xüsusi xidmətləri olub. Əminliklə deyə bilərəm ki, bu məsələdə həlledici rol Heydər Əliyevə məxsusdur".

Bu sözləri AZƏRTAC-a müsahibəsində Gürcüstan Baş nazirinin Rusiya ilə münasibətlər üzrə xüsusi nümayəndəsi Zurab Abaşidze söyləyib. Onun sözlərinə görə, bu gün Gürcüstanın və bütövlükdə regionun əldə etdiyi imkanlar, nailiyyətlər Heydər Əliyevin xidmətləridir. Bunu Azərbaycan xalqının ümummilli lideri, gürcü xalqının yaxın dostu Heydər Əliyevin 99-cu ildönümünə həsr olunmuş "Gələcəyə aparan yol" adlı sərginin açılışında da eşitdik. Gürcüstanın sabiq Prezidenti Eduard Şevardnadze də müsahibələrində bunu dəfələrlə təkrarlayıb. Z.Abaşidze deyib: "Heydər Əliyev və Eduard Şevardnadze dünyamiqyaslı dövlət xadimləri və siyasətçilər olublar. Onların dostluğu və şəxsi münasibətləri Gürcüstanla Azərbaycan arasında qarşılıqlı əlaqələrin möhkəmlənməsində xüsusi rol oynayıb".

Müsahib ötən əsrin 90-cı illərinin sonlarına qədər Gürcüstanın Avropa İttifaqındakı missiyasına rəhbərlik etdiyini və həmin illərdə Brüsseldə hər iki lideri bir neçə dəfə qarşıladığını vurğulayıb. Bildirib ki, həmin dövrdə Gürcüstanın və Azərbaycanın həyata keçirdiyi layihələr və proqramlarla yaxından məşğul olub. Onun sözlərinə görə, birgə layihələr hər iki dövlətə yeni imkanlar verdi. Bu layihələr, eyni zamanda, Avropanın enerji təhlükəsizliyində mühüm rol oynayır. Bu, danılmaz faktdır.

*Dünya güclərinin geosiyasi oyununun növbəti hədəfi Çinin hələ də öz ərazisi hesab etdiyi Tayvan ola bilər. Geostrateqlər hesab edirlər ki, dünya yeni "Soyuq müharibə"nin və ya bəlkə də nüvə müharibəsinin astanasındadır. Bu isə bütün bəşəriyyətin sonu demək olacaq. Əslində, "demokratiya və azadlıq" uğrunda mübarizənin qiyməti belədir.*




# Ukrayna savaşında əsl məqsəd: Çinin Avropaya yolunu kəsmək

ANALİZ

ABŞ Ukraynadakı münaqişədən istifadə edərək Avropanı Avrasiyadan qopardı. Bu, İkinci Dünya Müharibəsindən sonra ən mühüm geosiyasi hadisədir. Tanınmış siyasətçilər, araşdırmaçılar belə qənaətdədirlər ki, Tayvan növbəti hədəf ola bilər. Dünya yeni soyuq müharibənin və ya bəlkə də yeni dünya müharibəsinin astanasındadır. Əslində soyuq deyil, nüvə müharibəsi də adlandırmaq olar. Nüvə müharibəsi isə bütün bəşəriyyətin sonu demək olacaq.

”Demokratiya və azadlıq” uğrunda mübarizənin arxasında minlərlə insanın Amerika və ”Qərb” transmilli şirkətlərinin maraqlarına yemi kimi istifadə edilməsi faktı dayanır. Vaşinqton Rusiyanı zəiflətməyə və öz hərbi sənayesinin inkişafını stimullaşdırmağa çalışır və bunun üçün avropalıları sıxışdırmaqda davam edir, Rusiyadan gələn nüvə bombası təhlükəsinə və gözlənilən qaz, buğda, taxıl, ərzaq və digər mallar qıtlığına baxmayaraq, onları öz kursunu saxlamağa məcbur edir.

Bəzi geostrateqlər ABŞ-ın ”proksi müharibəsi” apardığını iddia edirlər. ABŞ Rusiyaya qarşı mübarizə aparır, lakin Ukraynadan bir icraçı və meydan kimi istifadə edir və hökumətdə ifrat sağçıların köməyinə müraciət edir (MKİ və NATO-nun dəstəyi, maliyyəsi və rəhbərliyi sayəsində). Lakin ABŞ-ın planı təkcə Ukrayna ilə məhdudlaşmır, o, daha genişmiqyaslı, qlobal hücumun bir hissəsidir və Çinə və



onun mümkün müttəfiqlərinə qarşı yönəlib.

Zaman keçdikcə münaqişə hərbi şirkətlər üçün yaxşı biznesə çevrilməyə başlayır və ondan tələb mənbəyi və iqtisadiyyatı yenidən aktivləşdirmək üçün resurs kimi istifadə oluna biləcəyini göstərir. Baxmayaraq ki, hərbi xərclər inflyasiyaya daha çox səbəb olur. Hamımız bilirik ki, istənilən müharibənin ilk qurbanı həqiqətdir.

Qısa müddətdə ən çox avropalılar, xüsusən də Rusiyadan gətirilən neft, qaz və ərzaq idxalçıları zərər çəkəcək. Onlar artıq çatışmazlıq və inflyasiyadan əziyyət çəkməyə başlayıblar ki, bu da şübhəsiz ki, sosial etirazlara səbəb olacaq. Lakin ilkin olaraq ABŞ və Qərbi Avropada müşahidə olunan inflyasiya sonda kapitalistlərin periferiyasına, Latın Amerikasına çatacaq ki, bu da iqtisadi inkişafı ləngidəcək və yoxsulluğu artıracaq.

Çox güman ki, münaqişə dolların beynəlxalq ehtiyat valyutası roluna xələl gətirəcək (avro öz mövqelərini itirməkdə davam edir). Dollar dünyanın ehtiyat valyutası kimi zəifləsə və ya çökərsə, ABŞ xarici kəsiri ”dollar çap etməklə” həll edə bilməyəcək. Bu, ən ağır zərbə olar və onun nəticələri də inanılmaz dərəcədə təhlükəli olar.

## Otuz il hədər getmədi

Berlin divarının uçmasından 30 il sonra Avropa keçmiş SSRİ-nin mərkəzində, sovetlərin ürəyində - Ukraynada yeni ”Dəmir Pərdə” inşa edir. Görünür, Şərqi Avropada münaqişə təxminən yüz il əvvəl ingilis geostrateqi Halford Con Makkinderin ”Dünya adası”, yeni Avrasiya uğrunda mübarizəni proqnozlaşdırdığı ssenari üzrə inkişaf edir. Makkinder bildirib ki, ”Dünya adası”nın mərkəzində ”Heartland” - Şərqi Avropadan Sibirə qədər olan region yerləşir. O, ”Demokratik ideallar və reallıq” (1919) əsərində yazırdı: ”Şərqi Avropaya nəzarət edən kəs ”Heartland”ə hökmranlıq edər, ”Heartland”ə nəzarət edən isə dünyaya hökmranlıq edər”.

1970-ci illərdən başlayaraq Amerikanın xarici siyasətinin memarı, Ukrayna və Polşanın qızğın anti-kommunisti Zbiqnev Bjezinski ABŞ prezidentinin milli təhlükəsizlik müşaviri kimi Cimmi Karteri Əfqanıstanın kommunist hökumətinə qarşı döyüşən islamçı üsyançıları dəstəkləməyə inandıra bilmişdi. 1979-cu ildə Mərkəzi Kəşfiyyat İdarəsi indiyədək həyata keçirilən ən bahalı ”Siklon” adlı gizli əməliyyata başladı. 1987-ci ildə əməliyyatın dəyəri artıq 630 milyon dollara çatdı. Əvvəlcə MKİ əfqan islamçılarını Britaniyanın köhnə ”Lee-Enfield” tüfəngləri ilə təmin etdi və 1986-cı ildə əfqan üsyançıları ”Stinger” zenit-raket sistemlərini aldı. İllər keçdikcə məlum olacaqdı ki, ”Siklon” əməliyyatı Bjezinskinin Sovetləri Əfqanıstana müdaxiləyə təhrik etmək üçün işlədiyi ən böyük planın tərkib hissəsi imiş.

Bjezinskinin planı bu idi ki, SSRİ Əfqanıstana daxil olmaqla öz ”Vyetnamı” ilə baş-başa qalsın. Plan işə düşdü və səkkiz illik müharibədən sonra SSRİ Əfqanıstandan qoşunlarını çıxarmağa məcbur oldu. Bjezinski Makkinderin ”Heartland” nəzəriyyəsindən ilhamlanaraq növbəti addımları atırdı. O bildirirdi ki, ABŞ-ın qlobal üstünlüyünü qoruyub saxlamağın yeganə yolu ”Dünya adası”nda bir gücün yaranmasının qarşısını almaqdır.

Bjezinski doktrinası hələ də ABŞ-ın xarici siyasətinə təsir edir. Və onun himayədarları, o cümlədən ukraynalı miqrantların nəvəsi, ABŞ dövlət katibinin müavini Viktoriya Nuland ABŞ Dövlət Departamentində söz sahibidir.

2014-cü ildə Kiyevin Müstəqillik meydanında etirazların qızğın vaxtında Rusiya kəşfiyyat orqanları Nulandın ABŞ-ın o vaxtkı səfiri Geoffrey Pyatt ilə Ukraynanın yeni hökumətinin formalaşdırılması ilə bağlı telefon danışığını dinləmişdi. Söhbət zamanı ABŞ-ın strateji siyasətinə qarşı çıxan Avropaya nifrətini nümayiş etdirən Nulandın səfirə ”Avropa İttifaqına getsin...” (müəl: söyüş söyülür) deməsi eşidilir.

Avromaydandan sonrakı illərdə ABŞ Ukraynada Əfqanıstan ssenarisini təkrarladı və gözlənilən nəticə ilə milyonlarla dollarlıq hərbi yardımı Rusiyaya cavab olaraq bu ölkəyə göndərdi. Bjezinski Əfqanıstanda, himayədarı isə Ukraynada uğur qazanmışdı.




| | ABŞ | RUSİYA | ÇİN | BİRLİKDƏ |
|---|---|---|---|---|
| ƏSGƏR | 1,400,000 | 1,014,000 | 2,185,000 | 3,199,000 |
| QIRICI TƏYYARƏ | 13,233 | 4,144 | 3,260 | 7,404 |
| TANK | 6,100 | 13,000 | 3,205 | 16,205 |
| DÖYÜŞ GƏMİSİ | 490 | 600 | 777 | 1,377 |
| NÜVƏ SİLAHI | 3,750 | 6,400 | 350 | 6,750 |

Avropanın Avrasiyadan qoparılması İkinci Dünya müharibəsindən sonra ən mühüm geosiyasi hadisə sayılır. Bəlkə də bu, bütün XXI əsrə təsir edəcək. Bir növ, Makkinder haqlı idi. Dəmir yolu dəniz gücləri üçün təhlükə yaradırdı, lakin hərbi deyil, kommersiya mənasında. Buna görə də amerikalı siyasətçilərin silahı altında Çinin ”Bir kəmər - bir yol” təşəbbüsü dayanırdı.

Bu proqram Şanxaydan Rotterdama qədər olan ”Dünya Adası”nı nəhəng iqtisadi rayona çevirə bilər. Bunu dayandırmağın yeganə yolu bütün ticarət yolu boyunca problemlər və qeyri-sabitlik yaratmaq, həmçinin əsas oyunçulara meydan oxumaqdır. Ukraynadan sonra Bjezinskinin davamçılarının növbəti hədəfi çox güman ki, Tayvan olacaq.

*Avropanın Avrasiyadan qoparılması İkinci Dünya müharibəsindən sonra ən mühüm geosiyasi hadisə sayılır. Bəlkə də bu, bütün XXI əsrə təsir edəcək.*





Qərb dünyanın ən çox əhalisi olan iki ölkəsindən, eləcə də Rusiyadan mənəvi cəhətdən təcrid olunub. Bu üçbucaq 21-ci əsrdə qüvvələr balansında əsas rol oynayacaq. Çinin rəhbərliyi altında dollar-avro sisteminə paralel yeni valyuta sistemi və Qərbin ”qaydalara əsaslanan sistemi”ni tətbiq edən Beynəlxalq Valyuta Fondu, Dünya Bankı və digər beynəlxalq təşkilatlara alternativlər hazırlanacaq.

## ABŞ Ukraynanın NATO-ya daxil olması məsələsinə baxmaqdan imtina edib

Münaqişədən əvvəl bir çox analitik problemlərdən qaçmaq üçün Ukraynanın NATO-ya daxil olmasını rədd etmək və ya gecikdirmək kimi addımların daha müdrik olacağını düşünürdü. Lakin Co Bayden administrasiyası özü etiraf edir ki, Rusiya Ukraynaya qoşun yeritməkdən əvvəl Vaşinqton əsas məsələlərdən birini - Ukraynanın NATO-ya üzvlüyü məsələsini Putinlə müzakirə etmək üçün heç bir səy göstərməyib. ABŞ-ın xarici siyasət və müdafiə araşdırma portalı ”War on the Rocks” bu həftə ABŞ dövlət katibinin müşaviri Derek Çolletdən NATO-nun Ukraynaya genişlənməsinin münaqişə başlamazdan əvvəl ”müzakirə edilib-edilmədiyini” soruşduqda, o, ”yox” cavabını verib. Çolletin şərhləri də Co Bayden administrasiyasının münaqişənin qarşısını almaq üçün kifayət qədər iş görmədiyinə dair şübhələri artırır. O cümlədən, Ukraynanın NATO-ya üzvlüyünün rədd edilməsi və ya təxirə salınması ilə bağlı ondan heç bir təklif irəli sürülməyib.

”Biz ruslara açıq şəkildə bildirdik ki, onlarla həqiqətən qorxulu və müəyyən mənada qanuni hesab etdiyimiz məsələlər haqqında danışmağa hazırıq, mən silaha nəzarət kimi şeyləri nəzərdə tuturam”, deyə Çollet bildirib. O, həmçinin bəyan edib ki, ABŞ Administrasiyası ”Ukraynanın gələcəyi”nin həmin problemlərdən biri olduğunu düşünmür və NATO-ya mümkün giriş ”problem” deyil. ”Bu, NATO ilə bağlı deyildi” deyən Çollet sonradan özü ziddiyyət təşkil edən açıqlama verib: ”Bu əsassız münaqişəyə başlamaqla Putin qarşısına ABŞ və Avropanı parçalamaq və NATO-nu zəiflətmək məqsədini qoydu”.

Təbii ki, qoşun yeritməzdən əvvəl Putin özü dəfələrlə bəyan edib ki, Ukraynanın potensial NATO üzvü olması Rusiyanın əsas təhlükəsizlik məsələsidir. Rusiyanın Ukraynada əməliyyatına başlamazdan həftələr əvvəl Putin bildirib ki, Rusiyanın NATO-nun genişlənməsi ilə bağlı narahatlığına məhəl qoyulmur. ”Biz bu məsələni indi, elə indi, yaxın gələcəkdə - danışıqlar prosesi zamanı, sülh yolu ilə həll etmək istəyirik. Biz bu mövqedən çıxış edirik və çox ümid edirik ki, bizim narahatlığımız tərəfdaşlarımız tərəfindən eşidiləcək və ciddi qəbul olunacaq”, - Rusiya prezident bildirib.

Çollet Putinin NATO ilə bağlı bəyanatlarını ”ciddi” qəbul etdiyini və ”NATO-nun genişlənməsi haqqında danışmaqdan belə imtina etməsinə” təəccübləndiyini bildirib: ”Biz NATO-dan müdafiə alyansı kimi danışırıq. NATO Rusiya üçün təhlükə yaratmır”.

Rusiyanın Ukraynada hərbi əməliyyatlarından əvvəl Quincy İnstitutunun Rusiya və Avropa üzrə aparıcı tədqiqatçısı Anatoli Lieven münaqişənin qarşısını almaq üçün atılacaq addımlar haqqında yazırdı. Onun fikrincə, ABŞ ”Ukraynanın NATO-ya üzvlüyünə 20 il müddətinə moratorium” təklif etməli, bununla da Rusiya da daxil olmaqla, Avropa üçün yeni təhlükəsizlik arxitekturasına dair danışıqlara vaxt verməli idi.

## Ən pis vəziyyət

Rusiya Qərbə deyir ki, Kiyevə silah tədarükünü dayandırmalıdır. ABŞ və müttəfiqləri isə Moskvaya Ukraynaya artırdıqları hərbi yardımla meydan oxumaqla cavab verdilər. Moskva da öz növbəsində Polşa və Bolqarıstana qaz nəqlini dayandırdı. Ukrayna böhranı Rusiyanın düşmənləri üçün ən uyğun olmayan anda baş verdi. ABŞ, Yaponiya və Avropa İttifaqı misli görünməmiş borc səviyyəsi və rekord yüksək inflyasiya ilə mübarizə aparır, müflisləşmə və hətta defolt dalğası yaratmadan faiz dərəcələrini artırmaqla öhdəsindən gəlmək mümkün deyil.

Bəzi iqtisadçılar Ukrayna böhranının Qərbin hərbi gücünün dayağı olan dollar-avro sisteminin hökmranlığına son qoyacağını proqnozlaşdırırlar. 4 milyarda yaxın əhalisi olan Asiya paralel maliyyə sistemini inkişaf etdirəcək və Qərbdən asılılığını azaldacaq. Bəlkə də bu ssenari qaçılmaz idi.

## Müharibə biznesdir

Biz yeni soyuq müharibənin astanasındayıq? Hər şey onu göstərir ki, Vaşinqton Rusiyanı dayandırmaq üçün heç nə etməyib və NATO ölkələrini hərbi əməliyyatlara sürükləyib. Bu, azadlıq və demokratiya adına hegemonluğu bərpa etmək strategiyasının bir hissəsidir. NATO üzvləri yenidən alyansa sadiq qalıb və Rusiyanı Ukraynadakı hərəkətlərinə görə cəzalandırmaq üçün ona qarşı sərt sanksiyalar tətbiq ediblər.

Quincy İnstitutunun beynəlxalq siyasət eksperti və tədqiqatçısı Uilyam Hartunq xəbərdarlıq edir ki, Vaşinqtondakı yırtıcılar ABŞ-ın hərbi büdcəsini ildə 800 milyard dollara yaxın artırmağa davam edirlər:

”Münaqişənin Ukraynadan kənara çıxması təhlükəsi var və ABŞ bundan Rusiya, Çin və ya İranın gücünə qarşı mübarizə bəhanəsi ilə həyata keçirəcəyi bütün dünyada daha aqressiv siyasətə haqq qazandırmaq üçün istifadə edəcək”.

Hartunq Səudiyyə Ərəbistanının Yəməndəki müharibəsi mövzusuna da toxunub. ABŞ-ın dəstəyi bu münaqişənin bir neçə il alovlanmasına imkan verdi. Bu müharibədə ABŞ-ın təsirinin daha məhdud olduğu Ukraynadan fərqli olaraq 400 minə yaxın insan həlak olub. Co Bayden hökuməti ”sabah bu qırğına (Yəməndə) son verə bilər.

Rusiyanı məhv etmək və öz növbəsində Çinə aparan Avrasiya yolunu kəsmək istəyində olan, azadlıq və demokratiya haqqında manixey anlayışını müdafiə edən Qərb (daha doğrusu ABŞ və onun avropalı dostları) dünyada bərabərsizlik, viran edilmiş torpaqlar, ərzaq böhranı və aclıq kimi xoşagəlməz fikirləri hələ çox eşitməli olacaqlar. Hələlik bizi nə gözlədiyini təsəvvür belə edə bilmirik.

**V.VƏLİYEV**

# Qlobal böhran şəraitində Azərbaycan iqtisadi inkişaf tempini artırır

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

***Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi" istiqaməti çərçivəsində hazırlanıb.***



## *Cənubi Qafqaz ÜDM-i: Gürcüstan "mənfi"yə keçdi, Ermənistan autsayder, Azərbaycan müsbət siyahıdadır*

Son günlərdə bir sıra aparıcı beynəlxalq maliyyə institutları və reytinq agentlikləri dünya ölkələri, o cümədən postsovet ölkələrinin iqtisadiyyatı ilə bağlı proqnozlarını pisləşdiriblər. Ukraynadakı müharibə, Rusiya və Belarusa sanksiyalar təzyiqi, ticarət və nəqliyyat əlaqələrinin azalması, yüksək inflyasiya, sənaye istehsalının azalması- bu, Şərqi Avropa və Qafqaz regionunda ölkələrin iqtisadi tonunu aşağı salan amillərin tam siyahısı deyil. Buna baxmayaraq, Avropa Yenidənqurma və İnkişaf Bankının (AYİB) bir gün əvvəl açıqladığı proqnozlara əsasən, Azərbaycan regionda 2022-ci ildə ÜDM artımının ən yüksək dinamika nümayiş etdirdiyi yeganə ölkə olaraq qalır. Dünya iqtisadiyyatının vəziyyəti ilə bağlı ”Caliber” analitik mərkəzinin beynəlxalq maliyyə-iqtisadi təşkilatların hesablatlarına əsasən hazırladığı iqtisadi təhlili oxucularımıza təqdim edirik.

Ardıcıl 2 aydır dünya ekspert icması bu il dünya iqtisadiyyatının inkişaf perspektivləri ilə bağlı mənfi mülahizələrini bildirir. Təəssüf ki, qlobal ÜDM-in ötən il əldə etdiyi yüksək artım templərini həm Ukrayna ətrafında kəskin şəkildə dəyişmiş geosiyasi vəziyyət, həm də enerji, ərzaq, xammal böhranı, yüksək inflyasiya və bəzi ölkələrdə təkrar defolt təhlükəsi ilə bağlı bir sıra digər amillər səbəbindən saxlamaq mümkün deyil. Bəli, bəzi analitiklər bu ilin sonuna qədər 1998 və 2008-ci illərin qlobal maliyyə böhranlarına bənzəyən hadisələri proqnozlaşdırırdılar. Öz növbəsində, kollektiv Qərblə Rusiya arasında ticarət və nəqliyyat əlaqələrinin pozulması və qarşılıqlı sanksiyalar fonunda yanacaq və neft məhsulları bazarında kəsir artır, sement və digər tikinti materialları, taxıl, yağ və digər ərzaq məhsulları, pambıq xammalı və geyim getdikcə bahalaşır və bütün bunlar ümumilikdə qlobal inflyasiyanın çarxını daha da fırladır.

Belə ki, ”Microsoft”un qurucusu Bill Qeyts Bloomberg-ə verdiyi şərhdə bir gün əvvəl Ukraynadakı hərbi əməliyyatlar səbəbindən qlobal iqtisadiyyatın ləngidiyi barədə xəbərdarlıq edərək, müharibə və sanksiyaların yaratdığı problemlər fonunda ABŞ-ın mərkəzi bankları , Böyük Britaniya, Hindistan və dünyanın bir sıra digər aparıcı iqtisadiyyatları inflyasiyanın azaldılması üçün yenidən maliyyələşdirmə üçün uçot dərəcəsini artırmağa məcburdurlar. Bu isə istər-istəməz borc vəsaitlərinin bahalaşmasına səbəb olur və biznes dairələri üçün investisiya və biznes fəallığını ləngitmək üçün siqnal rolunu oynayacaq. Mövcud geosiyasi böhran hələ tam başa çatmamış pandemiya fonunda baş verir, Qeyts hesab edir ki, dövlət borcunun çox yüksək səviyyəsi, eləcə də tədarük zəncirlərində davam edən problemlər fonunda iqtisadi artım da yavaşlayır.

Təəccüblü deyil ki, yuxarıda göstərilən faktları nəzərə alsaq, Beynəlxalq Valyuta Fondu (BVF) bu yaxınlarda 2022-ci ildə qlobal iqtisadi artım proqnozlarını əvvəlki gözləntilərdən 0,8 faiz bəndi azaldaraq 3,6%-ə endirdi. Dünya Bankı (DB) 2022-ci ildə qlobal ÜDM-in artım tempini 4,1%-dən 3,2%-ə endirib.

Tamamilə aydındır ki, Ukraynadakı müharibənin ən kəskin nəticələri, iqtisadi sistemlərinin qarşılıqlı asılılığını və ticarət əlaqələrinin yüksək səviyyəsini nəzərə alsaq, postsovet regionu ölkələrinə təsir edir. Avropa Yenidənqurma və İnkişaf Bankının bir gün əvvəl yenilənmiş hesablamalarında deyilir ki, ”AYİB 2022-ci ildə Rusiyanın ÜDM-nin 10% azalacağını və 2023-cü ildə sıfır dinamika proqnozlaşdırır”. Bundan başqa, 2022-ci il üçün proqnozlara görə, Ukraynanın ÜDM-nin çökməsi daha da pisləşəcək və 30%-ə çata bilər, Belarusun sanksiyalara məruz qalan iqtisadiyyatı isə ilin sonuna qədər 4% azalacaq və gələn il də artım tempi sıfır sərhədlər daxilində qalacaq”.

Bu cür qiymətləndirmələrin obyektivliyi kifayət qədər yüksəkdir, xüsusən də AYİB-in bütövlükdə Rusiya iqtisadiyyatı ilə bağlı proqnozları Rusiya Federasiyası Mərkəzi Bankının cari il üçün ÜDM-in aşağı düşəcəyini göstərən hesablamalarına uyğun gəldiyi üçün kifayət qədər yüksəkdir. Bi il 10%, gələn il 0% -dən 3%-ə qədər azalma və yalnız 2024-cü ildə artım gözlənilir.

Ümumiyyətlə, bir sıra digər beynəlxalq maliyyə institutları və reytinq agentliklərinin postsovet regionunun digər ölkələri üzrə proqnozları da eyni dərəcədə bədbindir. Xüsusilə, DB-nin Qazaxıstan iqtisadiyyatının inkişaf tempinə dair proqnozu may ayında bir qədər yaxşılaşaraq 2,3% təşkil etsə də, hələ də ilin əvvəlinə olan proqnozlardan 3,7% geri qalır. Öz növbəsində Asiya İnkişaf Bankı (AİB) Qırğızıstan iqtisadiyyatının inkişaf göstəricilərini 2 faizə endirib. Bu Mərkəzi Asiya dövlətlərinin hər ikisi Rusiya ilə sıx iqtisadi, investisiya və maliyyə əlaqələri, o cümlədən ticarət mübadiləsində rublun yüksək payına malikdir və həmçinin Rusiya Federasiyası ərazisindən tranzitdən çox asılıdır. Nəhayət, BVF qonaq işçilərdən gələn pul köçürmələrinin həcmi və Rusiyadan maliyyələşmə, habelə ticarətin azalması, təchizat zəncirində daha çox pozulmalar, istehlak və investisiyaların azalması səbəbindən Özbəkistanın ÜDM üzrə proqnozlarını 6%-dən 3%-ə endirib.

Dünya Bankı, AİB və BVF ekspertləri bu il Rusiya iqtisadiyyatı üçün son dərəcə mənfi ssenari ilə razılaşırlar, buna görə də Rusiyadakı böhranın multiplikativ təsiri səbəbindən bu 3 Mərkəzi Asiya ölkəsində ÜDM-in artım tempini azaltmağa məcbur olublar.

BVF-nin bu yaxınlarda dərc olunmuş məlumatlarına görə, qonşu Gürcüstanda ÜDM artımı 3,2% səviyyəsində proqnozlaşdırılır ki, bu da ilin əvvəlinə olan proqnozlardan xeyli azdır. Həmçinin bu yaxınlarda beynəlxalq reytinq agentliyi Moodys Gürcüstanın reytinqləri üzrə proqnozu ”stabil”dən ”neqativ”ə dəyişib. Ən pis vəziyyət Cənubi Qafqazın əbədi autsayderi- Ermənistanla bağlıdır. Beləliklə, BVF ekspertləri bu il Ermənistan iqtisadiyyatının anti-Rusiya sanksiyaları, Qara dənizdə nəqliyyat məhdudiyyətləri və daxili istehlakın azalması və xarici ticarətin azalması səbəbindən 1,5%-ə qədər və ola bilsin ki, daha da azalacağını gözləyirlər. Özü də özəl investisiyalar portfelinin demək olar ki, tam olmaması ilə.

Bu acınacaqlı fonda postsovet məkanında bu il ÜDM-in sabit artımı proqnozlaşdırılan yeganə ölkə Azərbaycandır. AYİB-in may ayı Regional İqtisadi Perspektivlər Yeniləməsində qeyd edilir 2021-ci ildə Azərbaycanda iqtisadi canlanmanın aparıcı qüvvəsi qeyri-neft sektoru, ilk növbədə xidmət sektoru və sənaye istehsalı olub, ümumilikdə qeyri-neft sektoru 7,2% artımı təmin edib. Ümumilikdə, ötən il respublika üzrə ümumi daxili məhsulun artımı 5,6 faiz təşkil edərək proqnozları üstələyib. Müvafiq olaraq, 2022-ci ildə Azərbaycanda ÜDM-in artımı 4,5% səviyyəsində proqnozlaşdırılır.

Avropa Bankı hesab edir ki, bu ilin 1-ci rübündə ölkə yaxşı templər qazanıb və ÜDM-in artımı 6,8%-ə çatıb. Bu müsbət dinamika həm neftin və qazın dünya bazarında yüksək qiymətlərinə, həm də ümumilikdə sənaye və kənd təsərrüfatı istehsalının və qeyri-neft ixracının artmasına əsaslanır və bu gəlirlər Azərbaycanda ən azı 2012-ci ildə iqtisadiyyatın inkişafına davamlı dəstək verəcək. Üstəlik, Mərkəzi Asiya və Cənubi Qafqaz ölkələri ilə müqayisədə Azərbaycanın Ukrayna müharibəsi və anti-Rusiya sanksiyalarından itkiləri daha kiçikdir: bizim əsas enerji ixracat bazarlarımız Türkiyə və Avropadır və bu marşrutlar münaqişə zonasından keçmir. Azərbaycandan Türkiyəyə qeyri-neft ixracı artıq Rusiya Federasiyasına analoji tədarüklərdən demək olar ki, 40% çoxdur, üstəlik, bu gün Azərbaycanın əmək bazarı Avrasiya İqtisadi İttifaqı üzvü olan ölkələrlə müqayisədə Rusiyadan daha az asılıdır.

Bunu nəzərə alaraq, AYİB-in may icmalında Azərbaycanın Şərqi Avropa və Qafqazda enerji sektorundakı mövcud vəziyyətdən qısa müddətdə faydalanacaq yeganə ölkə olduğunu qeyd etməsi təəccüblü deyil ki, çünki o, əsasən neft ixracatçısıdır və Rusiya qazının Avropaya tədarükü üçün kritik bir alternativdir.

Burada xatırlatmaq lazımdır ki, neft və qaza yüksək tələb və yüksək qiymətlər ölkəmizin xarici ticarət dinamikasının yaxşılaşmasında mühüm rol oynayıb. Beləliklə, Azərbaycanın xarici ticarət dövriyyəsi 60 faizdən çox, ixrac isə təxminən 2 dəfə artıb. Eyni zamanda, yerli qeyri-neft məhsullarının xarici bazarlara çıxarılması da 45 faiz artıb və bu proses cari ildə də davam edir. Nəticədə, cari ilin cəmi 3 ayında müsbət saldo 5,1 milyard dollara çatıb, yəni ixrac idxalı xeyli üstələyir ki, bu da çox müsbət amildir, xüsusən də bu gün dünyanın və regionun bir çox ölkələrində ticarət balansı mənfidir.

Azərbaycan iqtisadiyyatının bu il inkişaf perspektivləri ilə bağlı oxşar arqumentləri BVF və ”Fitch Ratings” beynəlxalq reytinq agentliyinin ekspertləri 2022-ci il üçün ÜDM-in proqnoz parametrlərini müvafiq olaraq 4% və 3,6% səviyyəsində göstərirlər. Eyni zamanda, BVF bu il Azərbaycanın ÜDM-nin nominal həcmini 73,4 milyard dollar səviyyəsində proqnozlaşdırır ki, bu da ötən ilin göstəricilərindən təxminən 25 faiz və ya 18,8 milyard dollar çoxdur.

Bununla belə, ölkənin durmadan inkişaf etdiyini, bütün pandemiya məhdudiyyətlərini dəf etdiyini, işğaldan azad edilmiş ərazilərdə xarici tərəfdaşların iştirakı ilə iri infrastruktur layihələrinin həyata keçirildiyini, sənaye zonalarının, aqroparkların və s. Sahələrdə kapitallaşmanın artırılması da nəzərə alsaq, ilin sonunda daxili ÜDM-in artım tempi daha yüksək ola bilər. Buna görə də Azərbaycan hökuməti 2022-ci il üçün ÜDM-in artımını ÜDM-in 3,9%-i səviyyəsində proqnozlaşdırır.

Bu, kifayət qədər yerinə yetiriləbilən vəzifədir, ən azı 1-ci rübdə Azərbaycanın qeyri-xammal iqtisadiyyatı çox yüksək göstəricilər göstərib, qeyri-neft sənayesində isə artım tempi hətta 18%-i keçib. ”Bu ilin yanvar-mart aylarında ölkədə qeyri-neft ÜDM-i 10,3% artaraq 15,01 milyard manata yaxın olub. Bu, Azərbaycanın iqtisadiyyatının bərpası prosesinin sürətləndirilməsinin mühüm göstəricisidir”, - Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov bildirib.

***Müəllif - Xəzər Axundov***
***Tərcümə - Elçin Bayramlı***

ANALİZ

# Sadıqcan tarında 12-ci sim - Zəfər simi

***Qarabağ Zəfəri dağından-daşından, çəmənindən-gülündən, havasından-suyundan, tarixi abidəsindən-yerlərindən, məscidindən-pirindən tutmuş bu yerlərin böyük şəxsiyyətlərinə kimi, ilhamını Şuşanın başı dumanlı dağlarından, yaşıl ətəyindən, allı-güllü çəmənindən, Ağdamın bəyaz atlılarından, Füzulinin adaşı Füzulidən, Xudəfərinin Araza sevdasından, Suqovuşanda görüşən sulardan, Laçının dolanbaclarından, Kəlbəcərin şiş papaqlı dağlarından, Zəngilanın bir-birinə çiyin verən meşələrindən alan sənət adamlarına qədər hər bir canlıya ikinci həyat verir.***

Qarabağın 30 illik sükutundan sonra buradan Üzeyirin ürəyimizlə qoşa döyünən melodiyaları, Xan Şuşinskinin, Bülbülün, Cabbar Qaryağdıoğlunun, Hacı Hüsünün, Məcid Behbudovun, İslam Abdullayevin Mirzə Sadığın sinəsinə basdığı tarının müşayiətindəki möcüzəli, əsrarəngiz səsləri, Vaqifin, Natəvanın qəlbləri riqqətə gətirən misraları eşidilir. Sıxır sinəsinə Sarı Aşıq sazını, ”Zəfər”dən deyir. Bu ab-hava ilə xarıbülbülün 30 illik payızına bahar gəlir

Budur Sadıqcan da tarına yeni bir sim əlavə edir, 12-ci simi-Zəfər simini. Bu sim qəlbimizin sarı simidir- həm hicran, həm vüsaldır, həm kədər, həm sevincdir. Bu sim 30 ilin qara sevdası, 44 günün sevdasıdır. Bu sim həm övlad dağı, həm də qürur dağıdır. Şəhiddir, qazidir, lakin həm də Vətən sevgisi, yurd məhəbbətidir. Anaların qara yox, al şalıdır-qürur şalıdır. Ataların oğül təşnəsi yox, torpaq-namus, şərəf xilaskarıdır. Bu sim anası Azərbaycana 30 illik həsrətdən sonra qovuşan Qarabağdır. Zəfərdir, ordudur, əsgərdir, müzəffər sərkərdədir. Məşhur tarzən, bəstəkar, böyük sənətkar Sadıqcanın Azərbaycan tarının ahəngdarlığı üçün 5-dən 11-ə qaldırdığı, daha təsirli etməsi üçün artırdığı 12-ci simdir. Zəfər nəğməsi yalnız o simlə ifa olunur indi. Bu səs Qarabağın bütün ellərinə azadlıq nəğməsini yaydıqca onu yaradan sənətkar haqqında da söhbət açmağa səbəb yaradır.

## Şuşada Sadıqcanın evi bərpa olunur

Ötən il noyabrın 8-də Şuşanın işğaldan azad olunması müjdəsini xalqımıza Bakıda-Şəhidlər Xiyabanından verən, Qarabağı Şuşasız təsəvvür etməyən ulu öndər Heydər Əliyevin Qarabağın işğaldan azad olunması ilə bağlı vəsiyyətini xatırladan və ata vəsiyyətinə əməl etdiyini qürurla söyləyən dövlətimizin başçısının Şuşaya hər səfəri bu gözəllər gözəli şəhərin yeni bir abad ünvanı ilə tarixiləşir. Mayın 10-da ümummilli liderimizin anadan olmasının 99-cu ildönümü günündə Qarabağın baş tacı Şuşada olan Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva burada bir sıra obyektlələrin açılışında iştirak etmiş, bərpa işləri ilə maraqlanmışlar. Məşhur tarzən, bəstəkar və Azərbaycan tarını təkmilləşdirən sənətkar Sadıqcanın vaxtilə yaşadığı ev də bərpa olunanlar sırasındadır. Sadıqcanın evində bərpa işlərini humanistlik, qayğıkeşlik, yenilikçilik rəmzi, dövlətimizin inkişafında xüsusi yeri olan Heydər Əliyev Fondu həyata keçirəcək.

Dövlətimizin başçısına məlumat verilib ki, Şuşa şəhərinin mərkəzində, Mərdinli məhəlləsində yerləşən bina ilkin görkəmini 80 faizə qədər itirib. Binanın qalan hissələrində isə konstruktiv çatlar müşahidə olunur və qəza vəziyyətindədir. Dördbucaqlı plan quruluşu olan ev ikimərtəbəlidir. Bina Şuşaya xas memarlıq üslubunda inşa olunub.

## Qafqazın birinci tarzəni

Mənbələrdən məlum olur ki, XVIII əsrdən etibarən Yaxın Şərq ölkələrində, o cümlədən Azərbaycanda xalq tərəfindən böyük sevgi ilə sevilən və qiymətləndirilən xanəndə və sazəndələrə ”can” kimi yüksək ad və yaxud təxəllüs verilərmiş. Belə bir əzizləmə Mirzə Sadığa da müyəssər olmuşdur. Həm tarın texniki vəziyyətini təkmilləşdirdiyinə, həm də tarda və kamançada gözəl ifasına görə Sadıqcan öz dövründə ”Qafqazın birinci tarzəni” kimi tanınırmış.

Sadıqcan həm kamançada, həm də tarda o dövrün məşhur xanəndələrini müşayiət edərdi. Artıq onun sorağı Qarabağdan kənara çıxmışdı. Cənubi Qafqazda, Şərq dünyasında Sadıqcanı yaxşı tanıyırdılar. Onu tez-tez öz məclislərinə, toylarına, xeyir işlərinə dəvət edərdilər. Sadıqcanın adı Cabbar Qaryağdıoğlu kimi xanəndə ilə yanaşı çəkilirdi. Bəstəkar Əfrasiyab Bədəlbəyli Sadıqcanın bəzən sağ əlini (mizrab olmadan) istifadə etmədən, sol əlinin barmaqları ilə fərqli səslər yaratmasını, simlərə xüsusi bir şəkildə vuraraq və ya basaraq, müxtəlif səslərin uzanması üçün pərdələri çəkməsini söyləyirdi. Bu fikri təsdiqləyən daha bir fakt da var. Tarzən Bəhram Mansurovun atası olan Məşədi Süleyman bəy Mansurov Sadıqcanı belə xatırlayırdı: Onun tarla möhtəşəm ifası, insanlar üzərində bir növ anlaşılmaz gücə malik idi. O, mizrab olmadan, virtuoz kimi tarı çənəsinə qaldırıb, bəzən isə tarı boynunu əyib çalırdı. O, həm də bəzən aşıqlar kimi, tarı başının üzərinə qaldırırdı. Buna bənzər digər faktı isə musiqi tədqiqatçısı Əbdülhəmid Babayev söyləyirdi: Mən ilk dəfə Sadıqcanı 1897-ci ildə Bakıda - İçərişəhərdə Hüseynbəy Ağayevin toyunda gördüm. Cəmi Qafqazda belə gözəl tar çalan olmayıb. Sadığın çox gözəl camalı var idi. Ucaboy, enlikürək və cüssəli idi. O, məclisə çox ədəb və ərkanla girərdi. Camaat ona sonsuz hörmət bəslərdi. Onun əlində o qədər qüvvə var idi ki, tarı çox zaman mizrabsız çalardı.

## Diz üstündən sinəyə

Tarın adı hər zaman muğamlarımızla qoşa çəkilib. Yəni muğamsız tar, tarsız muğamın olması təsəvvürlərə belə gələ bilməz. Əfrasiyab Bədəlbəylinin dediyi kimi: ”Əgər nəzərə alsaq ki, muğamların ifasında tar çalğı alətləri içərisində əsasdır, onda Mirzə Sadığın tarının son nəticədə Azərbaycan musiqi sənətinin inkişafında dönüş yaratdığını inamla demək olar. Mirzə Sadıqdan başlayaraq Azərbaycan muğamlarının mahiyyəti, onların ifadə vasitələri, təsir gücü və ifa üsulları yeni bir mərhələyə qalxmışdır. Mirzə Sadıq Azərbaycan musiqi tarixində yeni bir səhifə açmışdır”.

Azərbaycan muğamının inkişafı tarixində misilsiz xidmətləri olan Sadıqcan musiqi mədəniyyətimizin həm də novatoru olmuşdur. Azərbaycan musiqi tarixinin tədqiqatçısı Firudin Şuşinski yazırdı ki, Sadıqcan tarın təkmilləşdirilməsi üzərində işləyərək quruluşunu dəyişmişdir. Tarın qolunda olan bir çox artıq pərdələri atıb 17 pərdə saxlamış, səsini gücləndirmək üçün birinci qoşa ağ simin və qoşa sarı simin hərəsindən bir oktava yuxarı zil səslənən iki cüt cinkənə simi əlavə etmişdir. Tarın rezonansını artırmaq, həm də lazım gəldikdə səsləndirmək üçün sarı simdən bir oktava aşağı, yəni bəm səslənən bir qalın sarı boş sim də artırmışdı. Bundan əlavə, tarın qolunun yuxarısında, yəni kəlləyə yaxın yerdə əlavə pərdə bağlamaqla ”lal barmaq” üslubunu da icad etmişdi. Sadıqcana qədər tarın beş simi var idi. O, tara altı sim də əlavə edərək 11-ə çatdırdı. Onun yaratdığı yeni tar daha gözəl, daha mükəmməl hesab olunurdu.



Həm də o zaman tarı adət üzrə diz üstündə qoyub əyilərək çalardılar. Sadıqcan bu bəsit qaydanı sıradan çıxararaq həmin alətin tarixində ilk dəfə onu sinə üzərində çalmağa başladı. Məhz onun təkmilləşdirdiyi Azərbaycan tarı Qafqazda və Orta Asiyada geniş yayılaraq milli musiqimizin rəmzinə çevrilib.

Tarın dilini bilən, muğamlarımıza yaxından bələd olan bu sənətkarın bənzərsiz qabiliyyəti möcüzə hesab olunan başqa bir hadisədə də öz əksini tapmışdır. Bu, bir istedaddanmı, Allah vergisindənmi irəli gələn möcüizə imiş, bilmirəm, amma şahidlər nağıl edirlər ki, Sadıqcan qaratoyuğa bir neçə kiçik təsnif və mahnıları öyrədə bilibmiş. Bu barədə Qurban Pirimov yazırdı: ”Bir gün Sadıq məndən xahiş etdi ki, onun üçün Gülablıdan bir bülbül gətirim. Mən də bir şeyda bülbül, bir də qaratoyuq apardım. Bir gün gəlib gördüm ki, o, qaratoyuğun qabağına bir güzgü qoyub. Özü isə kənarda durub tar çalır. İndiki kimi yadımdadır. O qaratoyuqların çöldə oxumalarına bənzəyən bir təsnif çalırdı. Güzgüdə öz şəklinə tamaşa edən qaratoyuq birdən başladı oxumağa. Mən təəccübdən yerimdə quruyub qaldım. Sadıq belə sənətkar idi. O, görünməmiş bir möcüzə idi”.

## Qədim muğamlarımızdan ”Zəfər” muğamına

Tək milli musiqi aləti tara yox, eyni zamanda milli musiqimiz muğama da bir sıra yeniliklər gətirən Sadıqcan ”Segah” muğamını inkişaf etdirərək ona ”Zabul” pərdəsini, ”Mirzə Hüseyn” segahına isə ”Müxalifi” əlavə etmiş, ”Mahur”u daha da təkmilləşdirmişdir. Sadıqcanın bu ixtirasından sonra istər bəm, istərsə də yüksək səs diapazonuna malik xanəndələrə ”Zabul”u oxumaq daha əlverişli olmuşdur. Çünki yenə də musiqişünasların dediyinə görə ”Segah” muğamını tamam-dəstgah (yəni ”Mayei-zabul”, ”Manəndi-Müxalif”, ”Orta Segah”, ”Məxluq”, ”Şikəsteyi-fars”, ”Mübərriğə”, ”Ərağ”, ”Yədi hasar”, nəhayət, ”Aşiqi-guş” şöbəsindən sonra təkrar ”Zabul”a qayıtmaq) oxumaq üçün ”Zabul-segah” öz həcmi etibarı ilə xanəndəyə daha gözəl şərait yaradır.

Sadıqcandan əvvəl ”Mahur” muğamının bir dəstgahı mövcüd idi. Sadıqcan ”Mahur”a ”Mahur-Hindi” və ”Orta Mahur” dəstgahlarını əlavə etmiş, ”Orta Segah” və ”Bayatı-Şiraz”muğamlarına bir neçə rəng bəstələmişdir.

Budur, Qarabağ Zəfərinin ikinci ilində Sadıqcan tarımıza 12-ci simi əlavə edir. Bu sim ”Zəfər” adlı muğamımızı ifa etmək üçündür. Qoy bu sim heç susmasın, ”Zəfər” muğamını səsləndirsin. Bu səs öz gücünü Qarabağa yeni həyatın qayıtmasından, bütöv Azərbaycandan, vətənpərvər gənclərimizdən, ölməz şəhidlərimizdən, igid qazilərimizdən, ətrafında sıx birləşdiyimiz müzəffər sərkərdəmizdən alır. Qoy bu ”Zəfər” muğamı heç susmasın. Susmasın ki, yaxınlıqdakı düşmənin qulaqlarını hər an məğlubiyyət acısı ilə ”oxşasın”.

***Mətanət MƏMMƏDOVA***

# ”Xarıbülbül” Festivalının keçirilməsi mühüm siyasi və mədəniyyət hadisəsidir




“Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 5 yanvar 2022-ci il tarixli sərəncamı ilə 2022-ci il Azərbaycanda ”Şuşa İli” elan edilmiş və bunla bağlı Respublikamızda çoxsaylı tədbirlər həyata keçirilir. ”Şuşa İli” nin ilk böyük tədbiri ”Xarıbülbül” Beynəlxalq Folklor Festivalının keçiriləcəyi tarix dəqiqləşib. Böyük əhəmiyyətə malik bu Festivalın 12-14 may tarixində keçiriləcəyi nəzərdə tutulur. Tədbir Mədəniyyət Nazirliyi, Heydər Əliyev Fondu və Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin təşkilatşılığı ilə baş tutacaq”. Bu sözləri SİA-ya açıqlamasında deputat Rauf Əliyev deyib. Onun sözlərinə görə, keçən il 12-13 may tarixində Azərbaycanın mədəniyyət paytaxtı Şuşada, Cıdır düzündə Azəraycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına uyğun olaraq Heydər Əliyev Fondunun təçkil etdiyi Şuşanın rəmzi olan gülün adını daşıyan ”Xarıbülübül” musiqi festivalının keçirilməsi mühüm siyasi və mədəniyyət hadisəsi olmaqla Qarabağın tarixi simasının, Şuşanın mədəniyyət mərkəzi statusunun bərpasını təcəssüm etdirmişdir: ”30 illik fasilədən sonra 2021-ci ilin 12-13 may tarixində birinci dəfə keçirilən ”Xarıbülbül” musiqi festivalının şəhidlərimizin əziz xatirəsinə həsr olunması böyük əhəmiyyətə malikdir və 44 günlük Vətən müharibəsində qazanılmış Böyük Zəfərin mədəniyyət sahəsində davamıdır”.

Deputat sözlərinə belə davam edib: ”Vətən müharibəsi bir daha göstərdi ki, Azərbaycanda bütün xalqlar dostluq, qardaşlıq, həmrəylik şəraitində yaşayırlar. 44 gün ərzində torpaqlarımızın işğaldan azad olması üçün aparılan Vətən müharibəsində Azərbaycanda yaşayan bütün etnik və dini icmaların nümayəndələri vahid amal, vahid bayraq altında birləşərək çiyin-çiyinə döyüşməklə bir daha sübut etdilər ki, Azərbaycanda bütün xalqlar dost və qardaşdırlar. Heç bir qüvvə bu dostluğu və qardaşlığı poza bilməz.

”Xarıbülbül” festivalında ölkəmizdə yaşayan müxtəlif xalqların nümayəndələri çıxış etdərək bir daha Azərbaycandan- Şuşadan bütün dünyaya mesaj verərək bildirdilər ki, Azərbaycanda bütün xalqların və dini icmaların nümayəndələri dostluq, qardaşlıq, həmrəylik çəraitində yaşayırlar və bu cür yaşamaq və inkişaf etmək lazımdır. Ancaq çoxkonfesiyalı, çoxmillətli ölkələrdə, inkişaf, birlik, milli həmrəyik olur. Azərbaycan belə nadir ölkələrdən biridir və bu gün həm ölkə daxilində, həm də beynəlxalq aləmdə, multikulturalizmi, müxtəlif xalqların birgəyaşayışını təbliğ edir və bunun mümkünlüyünü bir daha əldə etdiyi uğurları ilə göstərir.

Əldə olunan bu uğurlar Azərbaycanda əsrlərlə mövcud olmuş tolerant mühitin, multikulturalizm ənənələrinin qorunub inkişaf etdirilməsində cənab Prezident İlham Əliyevin hakimiyyəti illərində bu qədər diqqət ayrılmasının nə qədər düzgün siyasət olmasını sübut etdi. Vətən Müharibəsindəki Qələbədə Azərbaycanda mövcud olan bütün icmaların payı və töhfəsi vardır. Azərbaycan Prezidenti cənab İlham Əliyevin tövsiyəsi ilə keçirilən ”Xarıbülbül” festivalı həm də Azərbaycan multikulturalizm ənənələrinin simvoluna çevrildi. Keçən il Heydər Əliyev Fondunun təşəbbüsü bu festivalda Azərbaycanda yaşayan xalqlar öz istedadlarını nümayiş etdirmişlər. Bu ilki festivalda eyni zamanda Azərbaycanda yaşayan xalqlarla bərabər iştirak etmək üçün dünyanın müxtəlif ölkələrindən folklor kollektivləri dəvət edilmişdir. Azərbaycanın ”Mədəniyyət paytaxtı”, TÜRKSOY un 2023-cü ildə ”Türk dünyasının mədəniyyət paytaxtı” elan etdiyi Şuşada keçiriləcək ”Xarıbülbül” Beynılxalq Folklor Festivalı mühüm siyasi və mədəniyyət hadisəsidir”.

**Ayşən Vəli**

# Dövlət qayğısı yaradıcı insanların fəaliyyətinə stimuldur

***Mədəniyyət və incəsənət xadimlərinə Azərbaycan Prezidentinin fərdi təqaüdünün və mükafatlarının verilməsi haqqında sərəncamları mədəniyyətimizə olan diqqətdir. Dünyanın ən qədim xalqlarından olan Azərbaycan xalqı özünün tarixi, maddi-mədəniyyət abidələri, zəngin ədəbiyyatı, incəsənəti və musiqi mədəniyyəti ilə hər zaman diqqətdə olub. Azərbaycan xalqının bədii təfəkkür və yaradıcılığına ölkənin qeyri-adi təbiəti, iqlimi, təbii sərvətlərinin zənginliyi də kifayət qədər təsirini göstərib. Ölkəmizin müxtəlif sənət növlərinin hər biri ayrı-ayrılıqda uzun və mürəkkəb inkişaf yolu keçməsinə baxmayaraq, birlikdə vəhdət təşkil edərək Azərbaycan incəsənəti və mədəniyyəti haqqında tam təsəvvür yaratmağa geniş imkan verir.***







Müasir dövrüzdə Azərbaycanda bütün sahələrdə olduğu kimi mədəniyyət sahəsində də böyük uğurlar müşahidə olunmaqdadır. Sənətə, sənət adamlarına böyük qayğı və hörmətlə yanaşan Azərbaycan Prezidenti İlham Əliyevin səyi və köməyi nəticəsində milli mədəniyyətimiz vüsətli inkişaf yoluna qədəm qoyub. Təməli Ulu Öndər tərəfindən qoyulan ənənə bu gün Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Azərbaycan milli mədəniyyətinin inkişafı dövlət mədəniyyət siyasətinin əsasında dayanan prioritet məsələlərdəndir. Mədəniyyət və incəsənətin inkişafını stimullaşdırmaq dövlət siyasətində xüsusi əhəmiyyət kəsb edir. Belə ki, mədəni və tarixi irsin mühafizə olunması, yaradıcılığın dəstəklənməsi, kadr hazırlığı və gənc istedadların dəstəklənməsi, milli sənətin inkişafı və s. diqqətdə dayanır. Azərbaycanda milli-mənəvi dəyərlərimizin qorunması və dünyada təbliği ilə bağlı möhtəşəm layihələr reallaşır.

Ölkə rəhbərinin imzaladığı sərəncamlar mədəniyyət və incəsənətimizin inkişaf etdirilməsinə yönəlmişdir. Dövlət başçısının çıxışlarının birində qeyd etdiyi kimi, mədəniyyət sahəsində böyük investisiya proqramları reallaşdırılıb, paytaxtda və regionlarda bir sıra mədəniyyət mərkəzləri, teatr binaları, sərgi salonları, rəsm qalereyaları istifadəyə verilib, habelə, mövcud mədəniyyət obyektlərinin müasir standartlara uyğun təmiri, maddi-texniki bazasının gücləndirilməsi, muzey fondlarının komplektləşdirilməsi və ekspozisiyaların zənginləşdirilməsi istiqamətində bir sıra irihəcmli layihələr həyata keçirilib. Dünya birliyinə inteqrasiya edilməsinə rəvac verən mədəniyyət ocaqları köklü şəkildə modernləşdirilib və yenidən qurulub. Cənab Prezidentin Sərəncamı ilə teatr binaları, konsert salonları yüksək səviyyədə təmir-bərpa edilib, sənət xadimlərinə xüsusi mükafatlar, fəxri adlar verilir, həyat şəraitləri yüksəldilir.

Bütün bunlar deməyə əsas verir ki, müasir həyatımızda mədəniyyət və incəsənətin müxtəlif sahələrini əhatə edən növləri Azərbaycan Prezidenti tərəfindən diqqətdə saxlanılır və onun inkişafına yüksək səviyyədə şərait yaradılır.

Dövlət başçısının ”Azərbaycan mədəniyyət xadimlərinə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün verilməsi haqqında”, eləcə də ”İncəsənət xadimlərinə Azərbaycan Respublikası Prezidentinin mükafatlarının verilməsi haqqında” 10 may tarixli sərəncamları sənətə və sənətkara olan diqqətin daha bir nümunəsidir. Bu gün mədəniyyət işçilərinə ayrılan diqqət bütövlükdə Azərbaycan mədəniyyətinə diqqətdir. Dövlət tərəfindən göstərilən qayğı yaradıcı insanların fəaliyyətinə stimul verir. Ölkəmizdə mədəniyyət sahəsinin ahəngdar inkişafının təmin edilməsi, dövlət başçısının bu sahəyə yüksək diqqət və qayğısının nəticəsidir. Uzun illər Azərbaycan mədəniyyətinin inkişafında xidmətləri olan sənətkarlara ayrılan bu diqqəq onların yaradıcılıq yoluna stimul verəcək.

**Zümrüd BAYRAMOVA**

# Kişilər niyə müəllim olmaq istəmir?

“Ölkəmizdə kişi müəllimlərin azalma səbəbi onların əməkhaqlarının azlığı ilə bağlıdır. Qeyd edim ki, 1998-1999-cu illərdən etibarən əməkhaqlarının azlığı kişi müəllimlərin də sayını azaltdı. Bunun nəticəsində təhsil müəssilərində qadın müəllimlərin sayı çoxaldı”. Bu sözləri SİA-ya açıqlamasında təhsil məsələləri üzrə ekspert Elçin Əfəndi deyib.



Onun sözlərinə görə, hal-hazırda ölkəmizdə fəaliyyət göstərən 4447 orta ümumtəhsil müəssisəsi var və burada 160 min nəfərə yaxın müəllim heyyəti çalışır ki, onlardan 120 min nəfərdən çoxu qadınlardır: ”Eyni zamanda, idarəetmə sahəsində, yəni məktəb direktorları, direktor müavinləri və laborantların böyük əksəriyyəti qadınlardır. Nəticə etibarilə məktəblərdə daha çox qadınlar üstünlük təşkil edir. İstənilən halda qadın müəllimlərin əməkhaqqı onlara uyğundur. Lakin bu əməkhaqqı kişilərə uyğun deyil. Kişilər ailə başçısıdır və onların pula daha çox ehtiyacı var. Bu səbəbdən də onlar pedaqoji sahədən qaçırlar. Düşünürəm ki, müəllimlərin əməkhaqqı artsa gələcəkdə kişi müəllimlər də üstünlük təşkil edər. Orta ümumtəhsil müəssiələrində qadın müəllimlərin çox olması qarşıdakı dövr ərzində ciddi fəsadlarla nəticələnə bilər. Bu psixoloji amillə bağlıdır. Burada biz müəyyən aspektləri nəzərə alaraq bildiririk. Son dövrlər qadın-qız xüsusiyyətini özündə yansıdan oğlan uşaqlarının sayının artması da bununla bağlıdır”.

Elçin Əfəndi sözlərinə belə davam edib: ”Əməkhaqqı həm qadın, həm kişilərə görə azdır. Cins bölgüsü apararaq əməkhaqqı təyin etmək də yanlışdır. 800-1000 manat əməkhaqqı həm qadın, həm də kişi üçün uyğundur.

Qadın müəllimlərin çox olduğu məktəblərdə şagirdlər mənfi mənada rahat olurlar. Qadınlar humanistdir və onlarda analıq hissləri baş qaldırır. Kişi müəllimlərdə isə sərt mexanizmlər özünü göstərir və bəzi məsələlərdə kişi müəllimlərin çoxluğu neqativ halların qarşısını ala bilir. Böyük əksəriyyət direktoru qadın olan məktəblərdə böyük boşluqlar olur. Lakin istisna hallar da var. Bu gün ortaümumtəhsil müəssisələrində dərs keçən müəllimlərin əksəriyyəti bədən tərbiyəsi və gənclərin çağırışa qədər müəllimi olub. Qaldı ki, Fizika, Riyaziyyat, Kimya və Biologiya müəllimlərinin əksəriyyəti də qadınlardır”.

**Ayşən Vəli**

# “Dünən sabiqlər” bizi amansızcasına döyürdülər, bu gün isə onlar döyülür”



Tevos Arşakyan: "Koçaryan, Saqrsyan və Vanetsyan çoxdan hüquq aliliyinə və demokratiyaya tüpürüblər"

“Dünən bizi, öz xalqını az qala zirehli texnikalarla əzənlər indi ”hakimiyyətin və polisin özbaşınalığı” haqqında dəm vururlar”. Bu barədə Ermənistanın armenianreport saytının redaktoru, siyasi analitik Tevos Arşakyan eyniadlı media qurumunun səhifəsindəki analitik yazısında yazır. Onun sözlərinə görə, artıq bir neçə gündür ki, ölkə qaynayan qazan mənzərəsini canlandırır. Analitik hesab edir ki, barışmaz müxalifət küçə marşlarına və aksiyalarına özlərinin azsaylı tərəfdarlarını çıxarır ki, onlar da özlərini qeyri-adekvat və aqressiv aparırlar. SİTAT: ”Özü də yalnız polislərə qarşı deyil, onların siyasi oriyentasiyası ilə razı olmayan adi yoldan keçənlərə qarşı da. Hakimiyyət isə demokratiya oyunu oynamağa çalışır və ən ağır ölçülərə getmir, yalnız İrəvanın canlanmış küçələrini və prospektlərini aksiya iştirakçılarının blokadalarından təmizləyir”.

Arşakyana xatırladıb ki, bir müddət əvvəl ABŞ-ın dövlət departamentinin rəsmi nümayəndəsi Ned Praysın keçirdiyi brifinqi zamanı Ermənistan hökumətini mitinq iştirakçılarına qarşı səbr və dözüm nümayiş etdirməyə çağırıb, eləcə də aksiyaçılara müraciət edərək onlara öz tələblərini sülh yolu ilə irəli sürməyə və güc tətbiqi etməməyə dəvət edib. ”Lakin sonuncular, xüsusilə bu aksiyaların arxasında dayananlar - Koçaryan, Saqrsyan və Vanetsyan çoxdan hüquq aliliyinə və demokratiyaya tüpürüblər”, deyə erməni analitki yazır.



## ”Keçmişlər” tərəfindən yedizdirilən KİV-lərin və teleqram kanallarının yazıları isə sadəcə ət tökür”

O əlavə edib ki, bununla yanaşı, belə prinsiplər onlar üçün heç vaxt mövcud olmayıb, nə hakimiyyətdə olarkən, nə də indi - tərəfdarlarını polislə qarşıdurmaya təhrik edərkən . SİTAT: ”Keçmişlər” tərəfindən yedizdirilən KİV-lərin və teleqram kanallarının yazıları isə sadəcə ət tökür. Aksiyaların təşkilatçıları bilərəkdən polislə qarşıdurmalar yaradırlar ki, sonra da bütün dünyaya güc strukturlarının vəhşiliyi, hətta nümayiş iştirakçılarının üzlərinə tüpürdükləri barədə car çəksinlər - necə ki, qara beretli xüsusi polis təyinatlısının müqaviləli hərbçisi aksiyaçılardan birinin üzünə tüpürmüşdü. ”Qaraul! Polislər nümayişçilərə qarşı aşırı güc tətbiq edirlər! Polislər saxlanılanların qollarını bururlar” - koçaryançı və sarqsyançı KİV-lər bağırırlar”.

Tevos Arşakyan polisin bir sıra hallarda həqiqətən də aksiya iştirakçılarına qarşı aşırı güc tətbiq etməsi ilə mübahisə aparmadığını deyir, lakin onu da qeyd edir ki, həmin güc məhz qayda-qanunları pozan ən aktiv iştirakçılara qarşı işlədilir və Nikol Paşinyanın güc strukturlarına vətəndaşlara qarşı aşırı güc işlətmək əmrini verməsi də inandırıcı görünmür.

## “Bəs 2008-ci ilin martındakı hadisələri unutmamısınız ki, Robert Sedrakoviç və Serj Azatoviç?”

Beləliklə, bu gün hakimiyyətə qarşı radikal aksiyalara start verənlərin və polisin aşırı güc tətbiq etməsi ilə şikayətlənənlərin əslində keçmiş zamanlardakı əməllərini xatırladan erməni analitiki məhz ”sabiqlərin” iqtidarda olduqları zaman xalqa qarşı zirehli texnika sürüldüyünü yazır. SİTAT: ”2004-cü ildə polis və ordu İrəvanda aksiya keçirən müxalifətçiləri sərt şəkildə dağıtmışdı. İnsanlar həmin vaxt artan işsizlik və sosial vəziyyətin pisləşməsi ilə əlaqədar Robert Koçaryana etimadla bağlı referendum keçirməyi tələb edirdilər. İnsanları rezin dəyənəklərlə döyür, sümüklərini və çənələrini sındırır, dişlərini tökürdülər.

Bəs 2008-ci ilin martındakı hadisələri unutmamısınız ki, Robert Sedrakoviç və Serj Azatoviç? Axı onda məhz sizin əmrinizlə etiraz aksiyaları vəhşiliklə dağıdıldı, nəticədə 220 nəfər yaralandı və 10 nəfər də öldü. Bəs elektromaydan? 2015-ci ilin 23 iyununda Sarqsyan İrəvanın mərkəzi meydanını təmilzəmək əmrini verdi. Onda 237 nəfər insan saxlanıldı və 8 nəfər mülki vətəndaş yaralandı”.



Armenianreport-un analitiki davam edir: ”Elektrik enerjisinin qiymətinin artımına qarşı etiraz edənlərin qovulmalarını xatırladımmı?

Bir il keçdi və ”Sasna Srer” polis alayını tutdu. 30 iyul 2016-cı ildə xalq qiyamçılara dəstək üçün kütləvi mitinqlər keçirirdi. Sari Taq kvartalında polis xüsusi təyinatlıları müxalifətyönlü vətəndaşları möhkəm döydülər. Polis evlərə daxil olub heç bir günahları olmayan vətəndaşlara qarşı güc tətbiq edirdi, hətta mitinqlərdə iştirak etməyən və təsadüfən hadisələrin mərkəzində olan bir gəncin gözünü çıxardılar.

Əgər indi hakimiyyətdə Koçaryan yaxud Sarqsyan olsaydı əminəm ki, onlar aksiyaların ilk günündəcə vətəndaş müqavimətinə qarşı zorakılıq göstərmək və nümayiş iştirakçılarına gözyaşardıcı qazdan, eləcə də xüsusi öyrədilmiş itlərdən istifadə etməyi əmr edəcəkdilər”.

## ”Düz deyirlər ki, su quyusuna tüpürmə, oradan sən də su içəcəksən, indi isə buyurun, həmin suyu sonuna qədər için”

Erməni siyasi yazarı sonda bildirir ki, Koçaryan və Sarqsyan qəddarlığı və onların hakimiyyətdən yapışmaq üçün öz həmvətənlərinin meyitləri üzərindən keçməyə hazır olmaları Ermənistanda kimsə üçün sirr deyil. SİTAT: ”Və bu müqavimət aksiyalarının dağıdılması zamanı heç kimin ölməməsi sizin deyil, məhz Paşinyanın xidmətidir. O nə qədər ”kapitulyant” olsa da belə, erməni xalqının qanını boş yerə axıtmağa dəqiq hazır deyil. Ona görə də bizi marazmatik hesab etməsinlər və öz haray-şivənləri ilə başımızı dəng etməsinlər ki, polis aksiya təşkilatçılarını qəddarlıqla dağıdır, axı siz daha betər davranırdınız. Düz deyirlər ki, su quyusuna tüpürmə, oradan sən də su içəcəksən, indi isə buyurun, həmin suyu sonuna qədər için”.

**_Rövşən RƏSULOV_**

# Ağıllı kənd təsərrüfatı NƏDİR?



***“Ağıllı kənd təsərrüfatı bilavasitə həm kənd təsərrüfatı sahələrinin idarə olunmasında, həm də inkişaf etdirilməsində məhz smart texnologiyaların və smart yanaşmaların tətbiqi nəticəsində göstərilən kənd təsərrüfatı fəaliyyətidir”. Bu sözləri SİA-ya açıqlamasında iqtisadçı Eldəniz Əmirov bildirib.***



Onun sözlərinə görə, biz buna ağıllı smart kənd təsərrüfatı deyə bilərik: ”Ağıllı kənd təsərrüfatı konsepsiyasının tətbiqi məhsuldarlığın artmasına gətirib çıxarır. Eyni zamanda qiymətlərin rəqabət qabiliyyətli olmasına imkan verir. Məhsuldarlığın artması hər məhsul vahidinə düşən maya dəyərinin aşağı formalaşması rəqabət qabiliyyətli bazarlarda məhsulun ucuz qiymətə satılmasına səbəb olur.

Ağıllı kənd təsərrüfatının bundan əlavə olaraq müəyyən üstünlükləri də mövcuddur. Hazırda bildiyimiz kimi kənd təsərrüfatı sahəsində sığorta problemləri yaşanır. Yəni kənd təsərrüfatının sığortalanması ilə bağlı ciddi problemlər yaşanır. Sığortaçı tərəf bunu sığortalamaqda tərəddüd edir. Kənd təsərrüfatı subyektləri isə məhz sığorta hallarının daha yuxarı olmasını əsas gətirərək bundan imtina edirlər. Çünki bu proses biri digərindən ciddi şəkildə asılı bir prosesdir. Ona görə ki, kənd təsərrüfatı fəaliyyəti digər iqtisadi fəaliyyət sahələri ilə müqayisədə son dərəcə riskli fəaliyyətdir. Çünki bunun iqlim şəraiti - yağışı, quraqlılığı və s. var. Bunların da sığortalanması sığortaçılar üçün o qədər də sərfəli deyil. Çünki əksər hallarda sığorta hadisəsi baş verir. Yəni tələf olmuş məhsullara daha çox rast gəlirik. Bu zaman isə artıq sığorta haqqı ödənilməli olur. Bu isə təbii olaraq sığorta şirkətlərinə baha başa gəlir. Bunun da risklərini azaltmaq üçün kənd fəaliyyətinin sığortalanması daha baha formalaşır. Çünki bu sahə üzrə risk faktoru böyükdür. Baha qiymətlərlə sığortalanmaq isə fermerlərə sərf etmir.

Məhz ağıllı kənd təsərrüfatı konsepsiyasının genişlənməsi həm də bu cür sığorta ilə bağlı problemlərin də aradan qaldırılması üçün istifadə edilə bilər”.

**_Səbinə Hüseynli_**

# Trüdonun Ukrayna səfəri: ermənilələri narahat edən nədir?

***Məlumdur ki, Ukraynada münaqişə başladıqdan sonra bu ölkəyə dünyanın bir çox tanınmış nüfuzlu şəxsləri - siyasətçilər, aparıcı Avropa təşkilatlarının rəhbərləri, hətta məşhur kino ulduzları və teatr xadimləri dəstək səfərləri edirlər. Onlar münaqişənin baş verdiyi qaynar nöqtələrinə belə getməkdən çəkinmir, müharibədə yaşananlara öz gözləri ilə şahidlik edirlər.***



*Dünyanın nüfuzlu siyasi-ictimai və s. nümayəndələrinin ukraynalıları ziyarət etmələri revanşistlərin "şərəflərinə" toxunurmuş*









Əgər ABŞ prezidenti Co Baydenin həyat yoldaşı Cill Baydenin Ukrayna prezidenti Vladimir Zelenskinin həyat yoldaşı Yelena Zelenskaya ilə birlikdə Ujqorodda məcburi köçkünlərin məskunlaşdırıdıqları məktəbə baş çəkmələrini də əlavə etsək, tanınmış Hollivud kinoaktrisası Anjelina Colinin, Avropa Şurası İttifaqının prezidenti Şarl Mişelin, Kanadanın baş naziri Castin Trüdonun, ABŞ Konqresinin Nümayəndələr Palatasının spikeri Nensi Pelosinin və başqa şəxslərin Ukraynaya səfər etmələri, əsllində, alqışlanılası addımlardır. Amma...

### Xəstə təfəkkür və travmalı beyin hüceyrələrinin aşkar simptomları özünü göstərir

Amma nədənsə bu fakt Ermənistandakı bir sıra dairələrdə qısqanclıq yaradır. Elə götürək, ölkənin aparıcı KİV-lərindən sayılan Armenianreportu. Adıçəkilən media qurumunun analitiki Razmik Akopcanyan qeyzlə yazır və məqsədini çatdırmağa çalışır ki, axı nəyə görə 44 günlük müharibə zamanı dünyanın tanınmış dövlət başçıları, nüfuzlu şəxsləri "artsaxa" səfərlər etməyiblər və oradakı ermənilərə "dəstək" göstərməyiblər və s.

Misal üçün, gəlin erməni analitikinin bir neçə cümləsinə nəzər salaq. "Artıq indi nəticə çıxarmaq lazımdır ki, bizim hakimiyyət "artsaxa" qarşı müharibədə etməli olduğu şeyi etməyib", yazan Akopcanyan xatırladır ki, sən demə, Nikol Paşinyanın Kanadanın baş naziri Trüdo ilə münasibətləri var, hətta Nikol onu İrəvana da gətirib, corabları ilə öyünüb. Erməni yazarı burada Kanadanın baş nazirinin nə qədər qəribə görünsə də, rəngli, al-əlvan corablar geyinmək maraqlısı olduğunu bildirib və Nikol Paşinyanın da həmin corabdan geyindiyini xatırladıb. Və beləliklə, əgər Castin Trüdo İrəvanda olubsa, Nikol Paşinyanla birlikdə allıgüllü corabları ilə foto pozaları göstəribsə, demək, müharibə vaxtı o yenidən Ermənistana getməli və oradan da Qarabağa səfər etməliymiş (???)

Nə deyəsən, xəstə təfəkkür və travmalı beyin hüceyrələrinin aşkar simptomları özünü göstərir və həmin simptomların ermənilərdə



mövcudluğu, əslind,ə təəccüb də doğurmur, necə deyərlər, dünyanın sağlam düşüncəli insanları bu reallığı yaxşı bilirlər.

### Əks halda uduzmayacaqlarmış (???)

Lakin yenə də həmin mövzunu diqqətə alıb digər nəticələri də çıxara bilərik. Erməni analitiki yazır ki, hətta indinin özündə Trüdonu Xankəndiyə, Şuşaya, Hadruta, Kəlbəcərə dəvət etmək lazımıymış, hətta dünyanın aparıcı siyasətçilərinin hamısını həmin ərazilərə aparmaq vacibiymiş və s. Fəqət, Paşinyan bunu etmədi və nəticədə (diqqət!) ermənilər azərbaycanlılara uduzdu (???!!!) Əslində, bu kimi yanaşma günün aneqdotuna da çevrilə bilər. Yəni bütün dünya hüquqi olaraq Qarabağı Azərbaycanın əzəli torpaqları olduğunu təsdiqləsələr də, Castin Trüdo və Şarl Mişel başda olmaqla dünya ölkələrinin nüfuzlu siyasətçiləri, dövlət başçıları və s. şəxslər 44 günlük müharibədə qanunsuz şəkildə Qarabağa gedərək işğalçı ermənilərə öz dəstəklərini ifadə etməliymişlər!

Hələ bu harasıdır? Akopcanyan Ermənistanın Azərbaycanın şəhər və kəndlərini, qəsəbə və rayonlarını ballistik raket, artilleriya zərbələrinə məruz qoymaları, dinc vətəndaşlarımızın, yaşlı və körpələrimizin qətlə yetirilmələri faktını da kənara qoyub həyasızcasına, idbarcasına və murdarcasına iddia edir ki, həmin şəxslər Qarabağın ermənilər yaşayan ərazilərinə gedərək dağıntılarla tanış olmalı, bundan sonra öz haqq mübarizəsini aparan Azərbaycana qarşı sanksiyalar tətbiq etməliymişlər.

Nə deyəsən, belə bir xəstə təfəkkürlü qonşularımızın olmasına görə, sadəcə, dərindən təəssüf hissləri keçirməliyik və məhz onları bizə urcah edənlərə lənətlər yağdırmaqdan başqa da çarəmiz də qalmır...

***Rövşən RƏSULOV***

***P.S.** Yeri gəlmişkən, Azərbaycanın şanlı qələbəsindən sonra Qarabağda ermənilərin yaşadıqları ərazilərə dəfələrlə qanunsuz səfərlər həyata keçirilib, amma bu səfərlərin heç bir nəticəsi olmayıb. Nəticə o olub ki, belə şəxslər Azərbaycanın qara dəftərinə düşüblər və bununla da iş başa çatıb. İndi bəlkə də həmin şəxslər də ermənilərə lənətlər yağdırırlar ki, onların xəstə təfəkkürlərinin qurbanlarına çevrilərək Azərbaycan kimi ölkəyə ayaqlarını basa bilməyəcəklər...*

TƏRS BAXIŞ

# Qızara bilməyən qızlar

***İnsanda bir dəyər kimi qiymətləndirilən və şəxsiyyətin mənəvi-ruhi səviyyəsini ifadə edən bir neçə təbii xüsusiyyət var ki, onlardan biri də də qızarmaqdır. Bəli, söhbət sözün həqiqi bütün mənalarında utanmaqdan, xəcalət çəkməkdən, abır-həyaya qısılmaqdan və bunun inikası olan qızarmaqdan gedir.***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Uşaq və gənclərin fiziki və mənəvi inkişafı" istiqaməti çərçivəsində hazırlanıb.*



Bizim uşaqlığımız qızarma hadisələrinin bol müşahidəsi ilə keçib. Uşaq yalanımızın üstü açılanda, ”cinayət” başında yaxalandıqda qızarırdıq. Həm də təkcə uçaqlar yox, böyüklər də qızarırdı.

Hətta bu qızarma prosesi adamı ələ verirdi. Bunu gizlətmək mümkün deyildi. Hansısa daxili sehirli qüvvə adamı buna məcbur edirdi. Bu proses bədii ədəbiyyatda, utanc, həya, abır, vicdan, xəcalət kimi sözlərlə yanaşı ifadə edilir.

İndi insanların çoxu qızara bilmirlər. Çünki utanc sayılan şeylər artıq çoxdan qürür yeri sayılır. İnsanın hansı intim yeri qaldı ki, televizorda göstərməsinlər? İnsanın hansı əxlaqsızlığı, xəyanəti, murdarlığı, şərəfsizliyi, eqoistliyi, tərbiyəsizliyi qaldı ki, tərif və təbliğ etməsinlər?

İnsan təkcə maddi varlıq deyil, daha çox ruhi-mənəvi şəxsiyyətdir- bu həm dini, həm elmi olaraq əsaslandırılmış aksiomadır. Bəs o zaman nədən son vaxtlarda bu mənəvi şəxsiyyəti maddi şəxsiyyətimizi yeyib sıradan çıxarır? Axı bu ikiliklərin vəhdəti fəlsəfəsinə ziddir?

Yarımçıq varlıq İNSAN adlana bilməz. Bizim heyvandan fərqimiz məhz həmin o ruhi şəxsiyyətin maddi şəxsiyyətlə bir bədəndə mövcud olmasıdır axı?

Mənəvi dəyərlərin başında əxlaqi prinsiplər- vicdan, humanizm, abır-həya, fədakarlıq, maddi və mənəvi yaradılışa sevgiylə yanaşma kimi xüsusiyyətlər dayanır. Bunlar olmayanda maddi bədən reaksiya verə bilməz. Mən biləni heyvanlar qızarmırlar...

Qızarma bunların hamısının ruhi bədənin qarşısında maddi bədənin günahı olduğu zaman ruhun adekvat reaksiyasıdır. Yəni, bizi hansısa daxili qüvvə qeyri-əxlaqi, qeyri-vicdani hərəkətə görə utanmağa, xəcalət çəkməyə və nəhayət qızarmağa məcbur edir.

Başqalarını deyə bilmərəm, şəxsən mən son dövrlərdə qızaran adama demək olar ki rast gəlməmişəm, baxmayaraq ki müşahidə etdiyim adamlarda bunun baş verməsi üçün kifayət qədər çox əsas verəcək hallarla qarşılaşmışam.

Lakin bu o demək deyil belə adamlar yoxdur, o deməkdir ki xeyli azalıb. Məni əslində daha çox qızların qızarmaması narahat edir. Bu daha çox onlara xas xüsusiyyət olmalıdır. Amma indi əksər qızlarımız bu xüsusiyyəti sanki şüuraltında dəfn edib unudublar. Bu hiss atavizm qalığı kimi təkamül prosesində ləğv olub gedib.

Axı müasirləşirik, sərbəstləşirik, inkişaf edirik. Ata qızdan evə niyə gec gəldiyini soruşanda utanıb qızarmadan yalan danışmaq adiləşib. İctimai yerdə sevgilisi ilə utanıb-qızarmadan öpüşmək adiləşib. ”Cinayət başında” yaxalananda belə qızarmadan bunu inkar etmək və özünə haqq qazandırmaq adiləşib.

Bir vaxtlar atanın yanında abırlı paltarda dolaşan qız, indi şalvar adı verilmiş dar kalqotkada, mini yubkada, yarımçıq köynəkdə gəzişir və bundan utanıb-qızarmır da. Bir vaxtlar atanın yanında kosmetikalı sifətdə görünməyən qızlar indi həmin atanın gözləri önündə əcaib rənglərdə olan təhlükəli kimyəvi ”kraska”ları sifətinə yaxır.

Vaxtilə toyda, ziyafətdə kompotu utana-utana içən, danışanda səsini yüksəyə qaldırmayan qızlar, indi araq-çaxırdan vurub əcnəbi müğənnilərin əcaib-qəraib çığır-bağırlarının müşayəti altında ortalıqda sərxoş halda erotik rəqslər edir. Heç utanıb-qızarmadan.

Görəsən beyində qızarma hormonlarını ifraz edən mərkəzə necə və nə ilə təsir olunub ki, o sistem işləmir? Anatomik alimlər gərək bunu araşdırsın. Psixoloqlar araşdırsın ki, yaxşı hərəkətlər necə pis, pislər necə dönüb yaxşı sayılır. Biz sosioloqlar isə aydınlaşdırmayılıq ki görək, dəyərləri, dəbləri kim müəyyən edir və məşhur ”Overton pəncərəsi” vasitəsilə cəmiyyətə tətbiq etdirir.

Formanın məzmundan üstün olduğu cəmiyyətlər əxlaqsız cəmiyyətlər sayılır. Bizim cəmiyyət belə olmayıb, olmamalıdır da. Əgər bu yazını oxuyanların arasında yuxarı dediyim tipdən qızlar varsa və yazını oxuyarkən qızardılarsa, deməli hələ heç nə itirilməyib.

***Lalə Mehralı***

# “Paşinyanın Qərbə boylanması Rusiyanı qıcıqlandırır”



***“Ermənistanda hadisələrin hansı axarda davam etməsi indiki şəraitdə Paşinyan və onun komandasının sərgiləyə biləcəyi siyasi iradə və qətiyyətdən kifayət qədər asılıdır. Parlament seçkilərində Paşinyanın əldə etdiyi inamlı qələbə göstərir ki, Ermənistanda seçki hüququ olan vətəndaşların mütləq əksəriyyəti ona və onun həyata keçirdiyi siyasi kursa etimad edirlər". Bunu SİA-ya açıqlamasında politoloq Elşən Manafov deyib.***

Onun sözlərinə görə, müxalifətin sosial bazası, habelə parlamentdə qüvvələr nisbəti erməni müxalifətinin xeyrinə deyil: ”Üstəlik güc nazirlərinin Paşinyana tabeçiliyi ona müxalifətin təşkil etdiyi aksiyaların qarşısını qanunvericilik zəminində, bununla belə daxili qoşun və polislərin birgə hərəkəti ilə almağa imkan verir. Lakin Paşinyanın Moskva və Brüssel razılaşmalarının şərtlərini yerinə yetirməkdə tərəddüd etməsi, onun Azərbaycan və Türkiyə ilə münasibətlərdə mövcud problemləri həll etməkdən yayınması onun xeyrinə işləmir. Müxalifət Paşinyanı dövlət və xalq maraqlarına xəyanətdə suçlayır, onun Azərbaycanla sülh müqaviləsinin imzalana biləcəyi ilə bəyanatlara məhz bu kontekstdən yanaşır. Üstəlik Paşinyanın Qərbə boylanması, onun ABŞ-a olan məlum səfəri bölgə uğrunda geosiyasi qarşıdurmada Qərbin əsas rəqibi olan Rusiyanı qıcıqlandırır”.

E.Manafov onu da bildirdi ki, Paşinyan Ukraynada olduğu kimi, burada da Qərbin ona dəstək verəcəyinə ümid edir və ciddi yanlışlıqlara yol verir: ”Əvvəla Azərbaycanın 44 günlük savaşda qələbəsi nəticəsində bölgədə yaranmış yeni geosiyasi reallıqları nüfuz dairəsi uğrunda burada qarşı duran tərəflər qəbul ediblər, hərçənd Qərbin bu reallıqları dəyişmək istəyi istisna deyil. Lakin Ukraynadakı qarşıdurmadan fərqli olaraq Qərbin bölgəyə hərbi konteksdə müdaxilə imkanları məhduddur. Geocoğrafi anlamda bölgə Qərbdən xeyli uzaqdır, onunla birbaşa quru sərhədlərinə malik deyil. Digər tərəfdən KTMT-nin, yəni rus NATO-sunun üzvi olan Ermənistana Qərb hərbi yardım göstərə bilməz. Ukraynadan fərqli olaraq Ermənistanda Rusiyanın hərbi bazası var və bu fakt Paşinyan da, onun Qərbdəki havadarları da gözəl başa düşürlər. Paşinyan və Qərb bölgəyə NATO-nu yaxın buraxmamaq məsələsində Rusiya ilə yanaşı İran faktorunu da nəzərə almaya bilməzlər. Nəhayət Ukraynadan fərqli olaraq Ermənistanda Rusiya yönümlü müxalifət var və onun hadisələrə təsir imkanları Paşinyanın siyasi səbatsızlığı ucbatından artmaqdadır. Nəhayət Azərbaycanla təmas xəttində Ermənistan tərəfindən atəşkəsin tez-tez pozulması göstərir ki, erməni ordusunda ”Qarabağ klanı” ilə bağlı qüvvələr var. Müharibədəki məğlubiyyət faktoruna görə, Paşinyana münasibət müsbət deyil. Odur ki, Paşinyan dərhal və qeyd şərtsiz Azərbaycanla danışıqlar masası arxasına keçməli, Azərbaycan Prezidentinin təklif etdiyi 5 məlum şərt əsasında sülh danışıqlarına getməlidir. Əks halda narazı elektoratın tərəfdarlarının sayı revanşist qüvvələrin təhriki ilə durmadan yüksələcək. Paşinyanın devriləcəyi təqdirdə isə onu hakimiyyətdə əvəz edəcək indiki müxalifətin Azərbaycanla növbəti savaşa gedəcəyi Ermənistanın özündəki durum, ordunun və iqtisadiyyatın vəziyyəti, habelə Qərb uçun ciddi əhəmiyyət təşkil edən neft və qaz kəmərləri uçun yarana biləcək təhlükə baxımından mümkün deyil, olsa indiki müxalifət sülh müqaviləsi ətrafında danışıqları dayandıra bilər, zira bəlli güc mərkəzindən alacağı geosiyasi sifariş də hələlik bunu diktə edir”.




***Gülyana***

Səs
12 may
2022-ci il

# Diqqət: İnternet xəstəlikləri hansılardır?

*Müasir dövrün ən böyük bəlası internet xəstəlikləridir. Hər yaşda rast gəlinən bu xəstəliyə xüsusilə işi kompüter dən asılı olanlar yoluxur. Axar.az xəbər verir ki, nevropatoloq Qalib Əsədov internet xəstəliklərinə daha çox göz yorğunluqları, bel ağrıları və müəyyən depressiyaların daxil olduğunu deyib.*



### Göz yorğunluğu

Kompüter ekranına çox baxanda gözlər yorular. Hətta gözlərinizdə yüngül ağrı belə hiss edə bilərsiniz. Gözünüzü uzun müddət ekrana tuşlamanız göz quruluğuna da səbəb olar. Buna görə tez-tez gözlərinizi istirahət verməlisiniz. Bir qədər kompüterdən uzaqlaşın.

### "Xəstəlik vurğunu"

Bəzi insanlar hiss etdiyi hər ağrını araşdırmağa meyillidir. "Xəstəlik xəstəsi" deyilən bu kəslər üçün internet ciddi bir məlumat qaynağıdır və davamlı olaraq hiss etdikləri ağrıların qaynağını və səbəblərini axtarırlar. Bu vəziyyət də adamı psixoloji böhrana aparır. Ciddi xəstəliklərin əlamətlərini hiss etdikləri ağrılarla uyğunlaşdıran bu kəslər zaman içində "xəstəlik vurğunu" olarlar. Yəni hansısa bir ağır xəstəliyə tutulduqlarını güman edirlər.

### Baş ağrısı

Bu ağrı göz və boyun üzərində yaranan təzyiqdən meydana gəlir. Ağrı müddəti 30 dəqiqədən bir həftəyə qədər uzana bilər. Gündəlik xroniki ağrılar: günün yarısından çoxunu baş ağrısı içində keçirirsinizsə, vəziyyət xroniki bir hal almış deməkdir.

### Stress ağrısı

Bu ağrı da internetdən çox zaman sərf etməkdən qaynaqlanan stress səbəbindəndir. Oxunan informasiya, baxılan video və ya görüntü, yoran məlumatlar və uzun müddətli hərəkətsizlik stress ağrısına səbəb olur.

### Kürək ağrısı

Davamlı sabit oturmaq kürək ağrısına yol aça bilər. Kürək əyilir, hərəkətsizlik başlayır və bu da ağrıya səbəb olur.

### Feysbuk depressiyası

Feysbuk kimi ictimai ünsiyyət şəbəkəsində çox danışmaq xüsusilə gənc qızları böhrana sala bilər. Qızların problemlərini danışa biləcəkləri söhbət sistemləri və ictimai ünsiyyət vasitələri bir vaxtlar bu qədər inkişaf etməmişdi. Bunun sayəsində gənc qızlar artıq problemləri haqqında daha rahat danışa bilirlər. Ancaq davamlı problemlər və romantik düşüncələr haqqında saatlarla və təkrar-təkrar danışmaq narahatlıq və böhrana səbəb olur, insanı depressiyaya salır.





# "Haaland əsl heyvandır"

*"Liverpul"un baş məşqçisi Yurgen Klopp Dortmund "Borussiya"sının hücumçusu Erlinq Haalandın "Mançester Siti"yə keçidinə münasibət bildirib.*

Qol.az xəbər verir ki, o, Britaniya mətbuatına açıqlamasında norveçli forvardın yaxşı oyunçu olduğunu söyləyib: "Mançester Siti" heç vaxt bir futbolçu sayəsində matçlarda qalib gələn komanda olmayıb və olmayacaq. Onların xüsusi oyun tərzi var. Haaland Dortmundda bir neçə dəfə zədələnsə də, o, əsl heyvandır. Təəssüf ki, bu, həqiqətən də "Mançester Siti" üçün yaxşı transferdir".

Qeyd edək ki, 21 yaşlı futbolçu Mançester təmsilçisi ilə 5 illik müqavilə bağlayıb. O, yeni mövsümdən "şəhərlilər"ə qoşulacaq.

# Ötən il neçə uşaq övladlığa verilib?



Ötən il ölkədə 114 uşaq (56 oğlan, 58 qız) övladlığa verilib ki, onlardan hər birini Azərbaycan vətəndaşları övladlığa götürüb. SİA-nın məlumatına görə, bu barədə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin 2021-ci il üzrə hesabatında qeyd edilib. Bildirilib ki, övladlığa götürülən uşaqlardan 26 uşaq müəssisədən, 63 uşaq yaxın qohumları tərəfindən, 19 uşaq ögey ata-ana tərəfindən və 6 uşaq isə valideynlərarası razılıq əsasında övladlığa götürülənlərdir.

Uçota alınmış valideyn himayəsindən məhrum olan uşaqların ümumi sayı 1 563 nəfər (944 oğlan, 619 qız) təşkil edib ki, onlardan 1248-i sağlam, 315-i isə sağlamlıq imkanları məhdud uşaqlar olub. Hesabat dövründə həmin müəssisələrdə valideyn himayəsindən məhrum olmuş 362 uşaq (218 oğlan, 144 qız) uçota alınıb, onlardan 306-sı sağlam, 56-sı isə sağlamlıq imkanları məhdud uşaqlar olub. Reinteqrasiya tədbirləri nəticəsində 89 uşaq ailələrinə qaytarılıb.

# Axşamlar kofe içmək yuxu rejimini pozur

*"Kofenin tərkibində kofein maddəsi mövcud olduğu üçün səhərlər kofe içdiyimiz zaman kofein qana qarışaraq beyinə çatır". Bu fikirləri SİA-ya açıqlamasında qida üzrə baş mütəxəssis Ağa Salamov bildirib.*



Onun sözlərinə görə, bu, insanlarda yuxusuzluğu aradan qaldırır, gün ərzində insanın gümrah hiss etməsinə səbəb olur: "İnsanları enerji ilə təmin edir. Gün ərzində normal həddi aşmayaraq 4 fincan yə ya 5 fincan kofe istehlak etmək olar. Lakin bunun da bir neçə qaydası var. Bu miqdarda kofe istehlak edən insan sağlam olmalıdır. Onu da qeyd edim ki, kofe yatmazdan 3-4 saat əvvəl istifadə edilməlidir. Yatana yaxın kofe istifadə etmək olmaz. Çünki yuxu rejmi pozulur. Axşam vaxtı yuxu rejminin pozulması isə səhər yorğun olmağımıza səbəb olur. Ona görə də axşam vaxtı kofe istehlak etmək məqsədə uyğun deyil.

Qan təzyiqindən, ürək qan-damar xəstəliyindən və ürək aritmiyasından əziyyət çəkən insanlara kofe içmək olmaz. Bu onlar üçün çox ziyanlıdır. Həmçinin yuxu pozuntusu çəkən insanların da kofedən istifadə etməsi məsləhətli deyil. Ən yaxşı halda kofe gündə 3 dəfə istehlak edilsə daha yaxşı olar. Həddən artıq kofe istehlak etmək ziyandır".

*Abutel İlhamqızı*

**Baş redaktor:**
Bəhruz Quliyev

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyov
küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 3220